www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 may 2015-ci il Çərşənbə № 97 (6125) Qiyməti 40 qəpik

## Xəbər

### Dövlət reyestri Xidmətinin rəis müavinini arvadı və qızı öldürübmüş

yazısı səh.15-də

## Gündəm

### Müsavat siyasi dustaqlarla bağlı tədbir keçirdi



Məhbusların azadlığa buraxılması üçün etiraz yürüşləri və aclıq aksiyası keçirilməsi də planlaşdırılır

yazısı səh.3-də

### Arif Hacılının müavinlərindən sərt açıqlamalar

yazısı səh.6-da

### Soros Fondunda çalışmış azərbaycanlılar milyarderə qarşı ittihamlardan danışdılar

yazısı səh.5-də

### Müxalifət Vaşinqtonla münasibətlərinin soyumasından narahatdır

yazısı səh.7-də

### Rektor deputatlar "ya mandat, ya vəzifə" dedilər

yazısı səh.6-da

### AMİP-ə də Prezident Administrasiyasından dəvət gəlib

yazısı səh.5-də

### Xədicə İsmayılla bağlı video-açıqlama ona kömək edəcəkmi?

yazısı səh.13-də

### Sabir Rüstəmxanlıya qardaşı oğlundan cavab gəldi

yazısı səh.5-də

### Azərbaycandan Suriyaya gedənlərin "marşrutu" açıqlandı

yazısı səh.3-də

*Ekspert:*

### "Məhsulun ömrünü nə uzadırsa, insanın ömrünü o qısaldır"

yazısı səh.11-də

### Hərb, yoxsa sülh yolu: tanınmış qadınlar danışır...

yazısı səh.15-də

## Göyçəlilər "ikinci deportasiya" ərəfəsində

# MƏMURLAR GƏNCƏBASARDA KƏNDLƏRİ İŞĞAL EDİB

Göygöl ərazisindəki Yeni Zod, Hacıkənd, Kamo, Mixaylovka və Azad kəndləri boşaldılır; sakinlərə süni problemlər yaradılır ki, bezib evlərini tərk etsinlər; əsas şikayət Gəncənin icra başçısı Elmar Vəliyevdəndir




yazısı səh.12-də

# İnformasiya savaşına "ağır toplar" qoşulur

Bakıdan okeanın o tayına ultimatum kimi çağırış; **Vitse-spiker Bahar Muradova :** "Azərbaycana qarşı qaralama kampaniyasını aparanların cavabını vermək bizim vəzifəmiz və borcumuzdur"

yazısı səh.4-də



Aytac Babayeva

### Qətlə yetirilən gənc qızın acı hekayəti "Yeni Müsavat"da

yazısı səh.10-da



Arif Alışanov

### AzTV sədrinin müavinləri işdən çıxarıldı

yazısı səh.5-də



*İqbal Ağazadə:*

### "Qərb iqtidara deyir ki, demokratiyanın faizini qaldır..."

yazısı səh. 8 və 9-da



## Prezident "İnturist" hotelinin açılışında iştirak etdi

**Mayın 5-də Bakıda "İnturist" hotelinin açılışı olub. AzərTAc-ın məlumatına görə, prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva hotelin açılışında iştirak ediblər. Dövlət başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsib.**

Prezident İlham Əliyevə hotel barədə ətraflı məlumat verilib. Bildirilib ki, beşulduzlu bu hotel "Absheron Hotel Group"a aiddir. Yeni hotel nəinki Azərbaycan, eləcə də keçmiş SSRİ-də məşhur olan Bakıdakı "İnturist" mehmanxanasının arxitektura üslubunda inşa edilib. Yeni hotel köhnə "İnturist" barədə xatirələri yaşatmaqla bərabər nadir memarlıq quruluşu ilə diqqəti cəlb edir.

Qeyd edilib ki, beşmərtəbəli binada 150 standart və suit nömrə, həmçinin SPA salonu, kitabxana, iclas zalı və restoran var.

Dövlət başçısı hoteldə yaradılmış şəraitlə tanış olub. Sonra Prezident İlham Əliyev otelin kollektivi ilə görüşüb.

Sonda xatirə şəkli çəkdirilib.

## "Neftçi"nin Nobel prospektindəki bazası köçürüləcək

**"Neftçi" futbol klubunun Bakı şəhəri, Nobel prospektində yerləşən bazası köçürüləcək. Bu barədə "Report"a klubun Müşahidə Şurasının sədri Çingiz Abdullayev məlumat verib. Onun sözlərinə görə, səbəb bazanın yerləşdiyi ərazinin plana düşməsidir: "Burada "Ağ Şəhər" salınır.**

Gec-tez biz bu ərazini "Ağ Şəhər"ə verməliyik. 2-3 ilə buradan köçməliyik. Ona görə də yaxşı şəraiti olan bir yerə köçməliyik ki, həm oynayaq, həm də məşq edək". Ç.Abdullayev bildirib ki, "Neftçi"nin bazasından fərqli olaraq, AFFA-nın mənzil-qərargahı plana düşməyib: "AFFA bir binadır. Amma bizim bazada ərazi çoxdur. Burada evlər tikilməlidir. Bu günə mənim məlumatım var ki, AFFA qalır, amma "Neftçi" gec-tez buradan köçməlidir".

**Müşahidə Şurasının sədri İsmət Qayıbov adına Bakıxanov qəsəbə stadionunda məskunlaşmaq istədiklərini bildirib. O, ev oyunlarını Bakı Olimpiya Stadionunda keçirmək niyyətlərində olduqlarını da bəyan edib:** "Əsas bazanı biz "İsmət Qayıbov"da tikirik. Gələn kimi dedim ki, Bakı Olimpiya Stadionunu SOCAR tikir və bəlkə oranı bizə verərlər. Çünki Azərbaycanın ən gözəl, ən tanınmış klubu "Neftçi"dir. Rövnəq müəllim dedi ki, "Bakcell Arena"nı doldurun, sonra baxarıq. Düz deyir, çünki 11 minlik tribunanı doldura bilmirik. Amma kubokun finalında çox adam gəlir. İstərdik ki, "İsmət Qayıbov"a köçək. Hazırda bizdə bazada vəziyyət ağırdır. Bu səbəbdən buranı köçürmək istəyirik. Fikirləşirik, necə edək və hara köçək ki, baza və stadion bir yerdə olsun".

## Azərbaycan ana olmaq üçün heç də ən yaxşı yer deyil

**Azərbaycan analar üçün yaradılan ən yaxşı şəraitə görə reytinq cədvəlində 90-cı yeri tutur. Virtualaz.org saytı Qərb KİV-lərinə istinadən xəbər verir ki, bu barədə "Save the Children" beynəlxalq təşkilatının dərc etdiyi hesabatda deyilir.**

Təşkilat 179 ölkədə araşdırma aparıb. Nəticədə məlum olub ki, azyaşlı uşaqları olan analar üçün ən ideal şərait Norveçdədir. Bu ölkədə analar üçün hər cür şərait yaradılıb. Ən yaxşı şəraitə malik olan ölkələrin ilk "onluğu"na Norveçdən sonra aşağıdakı ölkələr daxildir: Finlandiya, İslandiya, Danimarka, Almaniya, Niderland, İsveç, İspaniya, Belçika, Avstraliya.

Azərbaycanın qonşularından Gürcüstan reytinq cədvəlində 86-cı, Rusiya 56-cı, Türkiyə 65-ci, Ukrayna 69-cu, Ermənistan isə 109-cu yerdədir.

Reytinq cədvəli tərtib olunarkən uşaq doğub böyütməyin sosial baxımdan hansı ölkədə daha rahat və əlverişli olmasını göstərən meyarlar nəzərə alınıb.

Bu şəraitin ən pis olduğu ölkələr arasında isə Çad, Fil Dişi Sahili, Qambiya, Niger, Konqo, Somali və Mərkəzi Afrika Respublikası öndə gedir.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Əli Həsənov Türkiyədədir

**Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə səfərdədir.**



"Report" xəbər verir ki, bu haqda Türkiyə KİV-ləri məlumat yayıb.

Nümayəndə heyətinin tərkibinə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, deputat Hüseynbala Mirələmov, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov, Mətbuat Şurasının sədri Əflatun Amaşov, Xətai Rayon Bələdiyyəsinin sədri Teymur Məmmədov daxildir.

Xəbərə görə, Əli Həsənov Mersin vilayətinin Tarsus rayon bələdiyyəsinin sədri Şevket Canla görüşüb. Azərbaycanın nümayəndə heyəti Tarsus rayonunda ümummilli lider Heydər Əliyev parkının və abidəsinin açılışında iştirak edib.

Ə.Həsənov deyib ki, Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətləri ilbəil güclənir: **"Ulu öndərlər Atatürk və Heydər Əliyevin söylədikləri kimi, bizim ağrımız, acımız, sevincimiz birdir, dostluğumuz əbədidir. İki xalqın dostluğunun sarsılmaz və əbədi olduğunu bildirmək istəyirəm. Biz Azərbaycan xalqı olaraq, bu dostluğa və birliyə çox böyük dəyər veririk".**



Namiq Həsənov

## Ləğv olunan marşrut xətləri ilə bağlı açıqlama yayıldı

**Xəbər verildiyi kimi, Bakıda sərnişindaşıma sahəsində aparılan təkmilləşdirmə işləri çərçivəsində bir neçə marşrut avtobuslarının xəttində dəyişikliklər olub.**

Nəqliyyat Nazirliyi İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Namiq Həsənovun dediyinə görə, 20, 188, 53 nömrəli marşrut avtobuslarının xətləri ləğv olunub: "Təkmilləşdirmə işləri ilə əlaqədar olaraq, 14 saylı marşrut xətti 24, 90 saylı marşrut xətti 83, 86 nömrəli marşrutu xətti isə 29 saylı marşrut xətti ilə əvəz olunub".

Bundan başqa, N. Həsənovun sözlərinə görə, 124 saylı marşrutun hərəkət sxemi isə "20-ci sahə" adlanan əraziyə qədər uzadılıb.

"2 və 193 və saylı marşrut xətti şəhərin mərkəzindən çıxarılıb. 70 saylı marşrut xəttinin hərəkət istiqaməti dəyişdirilib. 95 saylı marşrut xətti "Xətai" metro stansiyasına qədər qısaldılıb", - deyə N. Həsənov bildirib.

O əlavə edib ki, 120 saylı marşrut xəttinə yeni avtobuslar buraxılıb.

Qurum rəsmisi əlavə edib ki, bu cür təkmilləşdirmə işləri yaxın günlərdə də davam etdiriləcək.

"Ola bilsin Bakı avtovağzalı, Ziya Bünyadov prospekti istiqamətində də müəyyən dəyişikliklər olsun. Biz bu barədə növbəti günlərdə ictimaiyyətə əlavə məlumat verəcəyik", - deyə N. Həsənov bildirib.

## Azərbaycan Asiya İnkişaf Bankından 1 milyard dollar kredit aldı

**Asiya İnkişaf Bankı (AİB) və Azərbaycan hökuməti ölkənin enerji paylama şəbəkəsinin bərpası və genişləndirilməsi məqsədilə 1 milyard dollar məbləğində investisiya proqramı üzrə anlaşma memorandumu imzalayıblar.**

Saziş 2-5 may tarixlərində Bakıda keçirilən AİB-in Rəhbərlər Şurasının 48-ci illik toplantısı çərçivəsində imzalanıb.

Sənədi proqramın icraçısı və dövlət müəssisəsi "Azərişıq" ASC-nin sədri Baba Rzayev, Azərbaycan hökuməti adından maliyyə naziri Samir Şərifov və AİB-in vitse-prezidenti Vencay Janq imzalayıblar.

V.Janq deyib ki, Azərbaycanın enerji sektoru ölkə iqtisadiyyatında aparıcı rol oynayır və təklif olunan proqram müştərilərə elektrik enerjisinin çatdırılmasını daha da təkmilləşdirəcək: "Proqram daha etibarlı enerji təchizatını bu sahədə itkilərin azaldılması və yüksək keyfiyyətli müştəri xidmətləri ilə təmin edəcək".

AİB proqramı 750 milyon dollar məbləğində çoxtranşlı maliyyələşdirmə mexanizmi vasitəsilə dəstəkləyir. 250 milyon dollar isə birinci mərhələ üçün nəzərdə tutulmuş kreditdir. Bu vəsaitlər enerji paylama xətləri, yarımstansiyaların yenilənməsi və müştəri xidmətinin təkmilləşdirilməsi, habelə mövcud elektrik enerjisi sayğaclarının rəqəmsal sayğaclarla əvəzlənməsi məqsədilə istifadə olunacaq. "Azərişıq" ASC-nin əməliyyat və maliyyə performansının yaxşılaşdırılması məqsədilə kadr potensialının gücləndirilməsi sahəsində fəaliyyətlər də həyata keçiriləcək.

Azərbaycan hökuməti 250 milyon dollar məbləğində vəsaiti təmin edəcək ("Trend").

## «Azercell»dən Korporativ Abunəçilər üçün Biznes Paketləri




Hər zaman müxtəlif abunəçi seqmetlərini yeniliklərlə sevindirən ölkənin lider mobil operatoru «Azercell Telekom» mayın 5-dən etibarən Fakturalı xətt seçilmiş müştəri qrupları üçün yeni Biznes paketlərini istifadəyə verib. Yeni paket abunəçilərə sərfəli danışıqla yanaşı, bir sıra güzəştlər də qazandırır. Belə ki, yeni paketə qoşulan zaman abunəçilər cəmi 10 AZN abunə haqqı ödəməklə ölkədaxili danışıqlar üçün 500 dəq, 500 sms və 500 MB internet əldə etmək imkanı qazanırlar. Eləcə də 20 AZN-lik abunə haqqı müqabilində abunəçi ölkədaxili danışıqlar üçün 2000 dəq, 2000 sms və 2000 MB internet əldə edir. Bu paketin digər bir üstünlüyü isə ondan ibarətdir ki, bu paketə qoşulmaqla abunəçilər beynəlxalq zənglərdə 20 və müvafiq olaraq 40 faiz endirimdən yararlana bilirlər. Eyni zamanda faktura dövrü ərzində əlavə trafikə 95% endirim tətbiq edilir (hər MB üçün 0.02AZN)

| | 10AZN (EDV daxil) | 20AZN (EDV daxil) |
|---|---|---|
| Ölkədaxili zənglər | 500 dəqiqə | 2000 dəqiqə |
| Ölkədaxili SMS | 500 | 2000 |
| Beynəlxalq istiqamətlərə zənglərə | 20% endirim | 40% endirim |
| İnternet | 500 Mb | 2000 Mb |

Qeyd edək ki, danışıq dəqiqələri sms rominq xidməti, qısa nömrələrə edilən zənglər və sms-lər xaric olmaqla ölkədaxili istiqamətlərdə istifadə oluna bilər. Eyni zamanda BizKlub daxili, qısa nömrələrə edilən, eləcə də peyk nömrələrinə və rominq xidməti çərçivəsində edilən xidmətlər istisna olmaqla, göstərilən xidmətlərin istifadə edilməyən hissələri növbəti faktura dövrünə keçirilmir. Əlavə xidmətlərin haqqı abunəçinin tarif paketinə uyğun olaraq hesablanır.

«Azercell» bundan sonra da abunəçilərini sərfəli tarif paketləri və yeni cəlbedici kampaniyalarla sevindirməkdə davam edəcək.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.




## Türk nazirdən gözlənilməz TANAP bəyanatı

**"TANAP-a ortaqlıq üçün yeni şirkətlərlə danışıqlar aparacağıq". Virtualaz.org saytı xəbər verir ki, bu sözləri Türkiyə mətbuatına açıqlamasında ölkənin enerji naziri Taner Yıldız deyib.**

Nazir Transanadolu Təbii Qaz Boru Xətti Layihəsinə (TANAP) ortaq olmaq üçün görüşlər keçirəcəkləri bir-iki şirkətin adını açıqlamayıb. T.Yıldız bildirib ki, həmin şirkətlər əgər özləri istəsələr, rəsmi açıqlama verərək bunu təsdiqləyəcəklər.

Qeyd edək ki, TANAP çərçivəsində qonşu ölkəyə ilk qazın nəqlinə 2018-ci ildə başlanılması planlaşdırılır.

1850 kilometrlik TANAP xətti 2020-ci ilin əvvəlindən etibarən Transadriatik Təbii Qaz Boru Xəttinə (TAP) bağlanaraq Cənub Qaz Kəməri vasitəsilə alacağı təbii qazı Yunanıstan, Albaniya və İtaliya üzərindən Avropaya çatdıracaq.

TANAP 10-11 milyard dollar dəyərində qiymətləndirilir. Layihədə payçılar arasında səhmlər belə müəyyənləşdirilib: "Cənub Qaz Dəhlizi" şirkəti - 58%, BOTAŞ - 30%, BP - 12%.

## Ərdoğan Putinin təklifini rədd etdi

**Rusiya Prezidenti Vladimir Putinin uzun müddət hazırlaşdığı faşizm üzərində qələbənin 70 illik yubileyinə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan qatılmayacaq.**

Axar.az xəbər verir ki, rəsmi Ankaranı Qırmızı meydanda Moskvadakı səfir Ümid Yardım təmsil edəcək.

Əldə olunan məlumata görə, Ərdoğan Kremlin dəvətinə müsbət cavab verməyib və bu qərar rəsmi şəkildə Kremlə çatdırılıb.

Bildirək ki, Putinin Çanaqqala döyüşünün 100-cü ildönümü ilə əlaqədar təşkil olunan mərasim zamanı Ermənistanda qondarma erməni "soyqırımı" mərasiminə qatılması iki ölkə arasında gərginliyə səbəb olmuşdu. Putin 24 apreldə İrəvan əvəzinə Türkiyəyə gəlməsini istəyən Ərdoğana mənfi cavab vermiş, Duma sədri Sergey Narışkin mərasimdə iştirak etmişdi.

Bu arada "Kommersant" qəzeti iki ölkə arasında nəhəng layihələr arasında yer alan Türk Axınının siyasi proseslərə görə yubandığını iddia edib. Qəzetin məlumatına görə, Rusiyanın "soyqırım" şərhlərinə Ankara Türk Axınını gecikdirməklə cavab verə bilər.

YENİ MÜSAVAT
N 97 (6125) 6 may 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

## Tofiq Yaqublu ailəsinə zəng edib

### Nigar Yaqublu: "Dözməkdən başqa da çarə yoxdur"

**Müsavat başqanının həbsdəki müavinlərindən Tofiq Yaqublu ailəsi ilə telefon vasitəsilə əlaqə saxlayıb. Gənc qızı Nərgiz Yaqublunun vaxtsız vəfatı ilə əlaqədar bir həftəlik azadlığa buraxılan, mayın 1-də isə yenidən həbsxanaya qayıdan vicdan məhbusu övlad itkisini unuda bilmədiyini bildirib.**

Bu barədə musavat.com-a açıqlamasında Nigar Yaqublu məlumat verib: "Atamla mayın 4-də telefonla danışdıq. Sözsüz ki, belə çətin anlarda həbsxanada olmaq çox ağırdır. Bizdən uzaqda bu acını çəkmək atam üçün həqiqətən çox ağırdır. Dözməkdən başqa da çarə yoxdur. Bazar günü görüşəcəm. Dostlarımız sağ olsunlar. Bizi tək qoymurlar. Hər gün gəlib-gedirlər".

Qeyd edək ki, mərhum əməkdaşımız Nərgiz Yaqublu aprelin 23-də səhər saatlarında Rusiyanın Tomsk şəhərində dünyasını dəyişmişdi.

❑ **Cavanşir ABBASLI**

# Müsavat siyasi dustaqlarla bağlı tədbir keçirdi

## Məhbusların azadlığa buraxılması üçün etiraz yürüşləri və aclıq aksiyası keçirilməsi də planlaşdırılır

**Mayın 5-də Müsavat Partiyası ölkədəki siyasi məhbus probleminə həsr olunmuş tədbir keçirib. Müsavatın İcra Aparatının rəhbəri Gülağa Aslanlı ilk olaraq çıxış edərək bildirib ki, onlar ötən ildən başlayaraq bu mövzuda silsilə tədbirlər keçirsələr də, nəticə əldə olunmayıb: "Ötən ildən silsilə tədbirlər keçirilir. Biz hətta demişdik ki, siyasi məhbuslar azadlığa buraxılmasa, Avropa Oyunları ilə bağlı dövlətlərə bu tədbirdə iştirak etməmək barədə müraciətlər edəcəyik.**

Fakt bundan ibarətdir ki, bizim və ümumilikdə demokratik düşərgənin müraciətlərinə baxmayaraq, siyasi məhbusların azad olunması hələ də baş vermir. Bir-iki siyasi məhbusun əfvi bu məsələnin hələ tam həlli demək deyil. Biz siyasi məhbusların qısa müddətdə azadlığa buraxılmasına nail olmaq üçün müzakirə aparmalıyıq və dəyirmi masanın məqsədi budur".

**Müsavat Partiyasının başqanı Arif Hacılı isə qeyd edib ki, bu gün Azərbaycanda yüzdən artıq siyasi məhbus var:** "Bu məsələdə ölkəmiz dünyanın "lider" ölkələrindən birinə çevrilib. Azərbaycan hakimiyyəti məhbusları həbsxanada saxlamaqla yalnız onları cəmiyyətdən təcrid etmək məqsədi daşımır. Həm də mübarizə aparan digər insanları qorxutmaq, cəmiyyəti xof altında saxlamaq üçün atılan addımdır".




O, həmçinin qeyd edib ki, siyasi məhbuslar azadlığa buraxılmasa, Müsavat Partiyası mayın 12-dən başlayaraq kütləvi aclıq aksiyasına başlamaq niyyətindədir.

**Vəkil Nemət Kərimli isə qeyd edib ki, Avropa Oyunları ərəfəsində siyasi məhbuslara diqqəti artırmaq, cəmiyyətin və beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək üçün hərəkət etmək lazımdır:** "Bu, etiraz aksiyaları şəklində də ola bilər".

**Müsavat Divanının üzvü Elman Fəttah isə qeyd edib ki, siyasi məhbus problemi həlli dalana dirənmiş bir məsələyə çevrilib:** "Biz onların məhz ləyaqətli azadlığına nail olmalıyıq. Elə etməliyik ki, hakimiyyət özünün alçaldıcı metodlarından istifadə etmədən siyasi məhbusları azadlığa buraxsın". O, aksiyaları, həmçinin hüquqi müstəvidə nəzərdə tutulan addımları dəstəklədiyini vurğulayıb.





**Sevinc Hüseynova isə deyib ki, partiya beynəlxalq təşkilatlarla zəif işləyir. O, qısa müddətdə insan haqları komissiyasının yaradılmasını təklif edib:** "Elə etməliyik ki, siyasi məhbuslar beynəlxalq miqyasda müzakirə edilən, diqqətdə saxlanılan məsələ olsun".

**Divan üzvü Səxavət Soltanlı isə qeyd edib ki, Azərbaycan hökuməti qəbul etməlidir ki, hansısa şəxsin, siyasi məhbusun nüfuzunu alçaltmaqla ucalmaq olmaz:** "Azərbaycan hakimiyyəti istənilən halda dövləti təmsil edir. Azərbaycanın nüfuzu da onların etdiyi hərəkətlərlə eyni səslənir. Hakimiyyət öz geridə qalmış düşüncəsindən əl çəkməlidir, siyasi məhbus məsələsinin həllinə çalışmalıdır".

**Keçmiş seçki məhbusu Şakir Abbasov bildirib ki, aclıq aksiyası keçirmək təklifini dəstəkləyir:** "Aksiyanı xarici jurnalistlərin burada olduğu müddətdə keçirmək daha yaxşı olar. Siyasi məhbusların azadlığa buraxılması üçün əlimizdən gələni etməliyik. Xaricdəki soydaşlarımızı da bu məsələdə köməyə çağırmalıyıq. Onlar bizə bu məsələdə dəstək olmalıdırlar".

**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər isə bildirib ki, ən çox siyasətçinin, ən çox jurnalistin, ən çox qeyri-hökumət sektorunda çalışanların həbsdə olduğu ölkə Azərbaycandır:** "Rejim cəmiyyəti xof içində saxlamaq üçün bu qədər insanı həbsə atmağa ehtiyac duyur". O, aclıq aksiyası, etiraz yürüşləri kimi təklifləri dəstəklədiyini vurğulayıb. Həmçinin qeyd edib ki, dövlət başçılarını sözügedən tədbirin açılışında iştirak etməməyə çağırış da qüvvədədir.

Sonda dörd təklif üzərində dayanılıb və bildirilib ki, təkliflərin həyata keçirilməsi mexanizmi müzakirə olunacaq.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Azərbaycanda Suriyaya gedənlərin "marşrutu" açıqlandı

## Suriyada Bəşər Əsədə qarşı döyüşməkdə təqsirləndirilənlərin məhkəməsində maraqlı faktlar açıqlandı

**Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyada Bəşər Əsədə qarşı olan qanunsuz silahlı birləşmələrin tərkibində döyüşməkdə təqsirləndirilən 6 nəfər - Sənan Baxışov, Ruslan Cəfərov, Eldost Quliyev, Məmmədşah Məmmədəliyev, Əhməd Həsənov və Maarif Mərdanovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Mirzə Xankişiyev sədrlik edib.

Prosesdə cinayət işinin materiallarında olan sənədlər, təqsirləndirilən şəxslərin ölkədən çıxması, həmçinin Suriyaya getmələri, sonradan Azərbaycana qayıtmaları ilə bağlı Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzinin arayışı elan olunub.

Həmin arayışda qeyd edilir ki, təqsirləndirilən şəxslər Azərbaycandan çıxaraq Gürcüstana gediblər, oradan Türkiyə vasitəsilə Suriya Ərəb Respublikasının ərazisinə keçiblər və orada qanunsuz hərbi birləşmələrin tərkibində döyüşlərdə iştirak ediblər.

Bundan başqa, təqsirləndirilən şəxslər izahatlarında göstəriblər ki, Suriyaya cihadda iştirak etmək məqsədilə gediblər. Onların qeydlərinə görə, orada qanunsuz hərbi birləşmələrin tərkibində təlimlər



keçiblər və döyüşlərdə iştirak ediblər.

Hakimin səsləndirdiyi sənədlərdə daha sonra qeyd olunub ki, təqsirləndirilən şəxslər Sənan Baxışov, Ruslan Cəfərov, Eldost Quliyev, Məmmədşah Məmmədəliyev, Əhməd Həsənov və Maarif Mərdanov Suriya Ərəb Respublikasına getmələri, bəziləri orda "Abu Hafsan"ın əmiri olduğu "ən-Nüsra Cəbhəsi", bəziləri isə əslən gürcü və ərəb mənşəli olan şəxslərin rəhbərlik etdikləri hərbi birləşmələrdə iştirak ediblər. Qeyd olunub ki, təqsirləndirilən şəxslər Azad Suriya Ordusu tərəfindən əsir götürülüb və sonradan həmin ölkədən deportasiya ediliblər.

Əhməd Həsənov izahatında qeyd edib ki, Suriyada gedən cihadda iştirak etməsi üçün Gürcüstana, oradan da Türkiyəyə keçib.

Onun qeydinə görə, Türkiyədən Hasan adlı şəxsin vasitəsilə Suriya ərazisinə keçib. Orada bir müddət təlimlərdə, sonra da döyüşlərdə iştirak edib. Əhməd Həsənov daha sonra izahatında bildirib ki, sonradan əsir götürülüb və Suriyadan çıxarılıb.

Digər təqsirləndirilən Maarif Mərdanov izahatında bildirib ki, Sumqayıtdan olan Aqil Hacıyevin əmiri olduğu "camaat"ın tərkibində təlimlərdə iştirak edib.

O qeyd edib ki, Suriyaya getməkdə məqsədi cihadda iştirak etmək olub: **"Suriyada hərbi birləşmələrin tərkibində silahla təchiz olunmuşam".**

Ruslan Cəfərov istintaqa verdiyi izahatında qeyd edib ki, əslən gürcüstanlı olan Şeyx Süleymanın əmiri olduğu "camaat"ın tərkibində döyüşlərdə iştirak edib.

Bundan başqa, cinayət işinin materiallarına əsasən təqsirləndirilən şəxslər bir-birilərini fotoşəkillər vasitəsilə tanıyıblar. Həmçinin təqsirləndirilən şəxslər Suriyada "camaat əmiri" olan bir neçə nəfəri də fotoşəkillər vasitəsilə tanıyıblar.

Müəyyən edilib ki, Aqil Hacıyev, İntiqam Əliyev, Xalid Atakişiyev Suriyada bir neçə "camaat"a rəhbərlik ediblər.

Məhkəmə prosesi mayın 19-na kimi təxirə salınıb.

Qeyd edək ki, təqsirləndirilən şəxslər məhkəməni inkar etdiiklərini əsas gətirərək sərbəst ifadə verməkdən imtina ediblər.

Təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinin 228.1, 12.1, 279.1-ci, 123, 214.2 və 28-ci maddələri ilə ittiham irəli sürülüb.

YENİ MÜSAVAT
N 97 (6125) 6 may 2015



# Şarlatanların ifadə azadlığı

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Qərbdə yenə hansısa gizli və məkrli əllər islamofobiyanın növbəti dalğasını körükləmək üçün hərəkətə keçib. ABŞ-ın Texas ştatında ötən bazar İslam Peyğəmbərinin (s) karikatur sərgisinin təşkilinin ayrı anlamı ola bilməz. Bəşəriyyət bu kimi qorxulu oyunbazlılıqdan deyəsən axı təzəcə qurtulmuşdu. Amma yox. Kimlərsə, israrla qaşınmayan yerdən sağalmaz yara düzəltməyə çalışır.**

Artıq ilkin neqativ nəticə var: karikatura sərgisinin keçirildiyi salona terror hücumunun arxasından İŞİD çıxıb. Bunun nə dərəcədə gerçək olduğunu söyləyə bilmərik. Bir şey gün kimi aydındır ki, belə üzdəniraq sərgilərdən ən çox İŞİD, “əl-Qaidə” tipli təşkilatların öz tərəfdarlarını artırmaq üçün yararlanması təbiidir, məntiqlidir.

Görün, İŞİD-çilərin olayla bağlı açıqlamasında nə deyilir: “ABŞ torpaqlarında ilk hücumumuzu həyata keçirdik. İki əsgərimiz Həzrət Məhəmmədin (s) uyğun olmayan şəkildə əks olunduğu sərgiyə hücum etdi. Bu, hələ başlanğıcdır. Daha böyük və dəhşətli hadisələr olacaq”.

Necədi?

Sual yaranır: ABŞ İŞİD təhlükəsinə qarşı mübarizədə səmimidirsə, nədən öz ərazisində bu terror təşkilatına nəfəs rolu oynayan hallara qarşı barışmaz ola bilmir? Nə üçün məkrli dairələrin ifadə azadlıqlarından sui-istifadəsinə, müsəlmanların etiqad azadlıqlarının təhqir edilməsinə, Qurani-Kərimin yandırılmasına davamlı göz yumur?

Sərgiyə hücum edən terrorçular öldürüldü, bunu anladıq, bəs “ifadə azadlığı” adə altında həmin sərgini təşkil edən “ultra-demokrat” şarlatanlar, salondakı gerçək terrorçular necə olsun? Peyğəmbərin timsalında milyard yarım insanın hisslərini, inancını aşağılayanlar terrorçu deyillər ki?

Terrorçudurlar. Məsələ də bundadır ki, bəşəriyyətin yeni-yeni faciələrdən xilas üçün hər şeyi, hamını öz adı ilə çağırmaq lazımdır. Maraqlıdır ki, bu kimi həssas mənəvi məsələlərdə ənənəvi olaraq Qərb Rusiyaya uduzur. Adama qəribə gələn də budur: nəyə görə “soyuq savaş”ın başladığı dönəmdə ABŞ Kremlin əlinə işləyir?

Bu da konkret fakt. Texas olayı ilə bağlı da Rusiya ədalətli, obyektiv mövqe sərgiləyib. Rusiya Dövlət Dumasının Texas olayına reaksiyasından buna asanca yəqinlik hasil eləmək olar: Dumadakı parlament çoxluğu hesab edir ki, Texasdakı atışma “bəşəriyyətin əsas düşmənin ekstremizm və terrorizm olduğunu bir daha təsdiqləyir”.

Bu barədə danışan “Vahid Rusiya” parlament fraksiyası rəhbərinin müavini Frans Klintseviçin sözlərinə görə, bunun əksini iddia edənlər istər-istəməz İŞİD terror təşkilatının əlinə oynayırlar. “Məhəmməd peyğəmbərin karikaturalarına gəlincə, burada söhbət xüsusi olmalıdır. Əlbəttə ki, biz ifadə azadlıqlarının əleyhinə deyilik. Ancaq eyni zamanda heç bir ifadə azadlığı da insanların dini hisslərini təhqir etmək hüququ vermir” - deputat vurğulayıb.

Qərb siyasətçilərindən, Qərb mediasından belə bir mövqe ortaya qoyulmasını siz sonuncu dəfə nə vaxt görmüsüz? Şəxsən mən yada sala bilmirəm. Rusiyadan mənim xoşum gəlmir, Azərbaycanın müstəqilliyinə ən böyük təhlükənin şimaldan qaynaqlandığına da əminəm. Amma Rusiya nə qədər avtoritar dövlət olsa belə, bu ölkədə hələ ki, anti-İslam ovqatı özünü göstərməyib - heç bir səviyyədə. Bu da var axı.

İddia edilə bilər ki, Rusiyada 20 milyon müsəlman yaşayır, zaman-zaman terror hücumlarına məruz qalıb - səbəb odur. Guya ABŞ terror hücumlarına məruz qalmayıb? Təxminən eyni sayda da müsəlman Birləşmiş Ştatlarda yaşayır. Deməli, problem təməl azadlıqlarının istismar edilməsində, təhlükəli ifratlara (məqsədli) laqeydlikdədir. Halbuki bir insanın təməl azadlığı digərinin eyni azadlığı başlayan yerdə bitməlidir. Bitirmi?

***

Vicdan azadlıqlarına belə fərqli, paradoksal yanaşma müsəlman dünyasında Qərbin, ABŞ-ın deyil, Rusiyanın imicinə işləyir. Qərbə, Amerikaya bu, lazımdırmı? İslam Peyğəmbərinin (s) üzdəniraq karikatur sərgiləri onun müsəlman dünyasındakı köklü maraqlarına uyğundurmu? Hər şey qırağa, Qərb toplumu onun mövcudluğuna getdikcə daha real hədə olan islamofobiya mərəzinə “dur!” deyəcəkmi?

# İnformasiya savaşına “ağır toplar” qoşulur

**Xəbər verildiyi kimi, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ABŞ dövlət katibi Con Kerrinin Konqresdəki ofisi tərəfindən Azərbaycan əleyhinə kampaniya aparıldığı barədə yayılan məlumatlara münasibət bildirib. Nazir ABŞ-a münasibətdə gözlənilmədən və yetərincə sərt tonda Vaşinqtonu qınayıb.**

## Bakıdan okeanın o tayına ultimatum kimi çağırış; **Vitse-spiker Bahar Muradova:** “Azərbaycana qarşı qaralama kampaniyasını aparanların cavabını vermək bizim vəzifəmiz və borcumuzdur”

**Sitat:** “Bu vəziyyət təəccüb və ciddi narahatlıq doğurur. Təhlillər onu sübut edir ki, ABŞ-da olan müəyyən insanlar ”insan hüquqlarının müdafiəsi"ni yalnız vasitə kimi istifadə edərək, məqsədyönlü şəkildə Azərbaycana qarşı əks-təbliğat kampaniyası aparırlar. Anti-Azərbaycan kampaniyası müxtəlif ictimai və media təzyiq vasitələri ilə yalnız Azərbaycanın beynəlxalq imicinə ziyan vurmaqla məhdudlaşmır, eyni zamanda ölkədə ictimai-siyasi sabitliyi pozmağa yönəlib".

**Və ən önəmlisi, XİN başçısı ABŞ-a əslində ultimatum xarakterli tələb irəli sürüb:** “Ciddi narahatlığa səbəb - sənədlərdə adıçəkilən bütün QHT və digər təsisatların ABŞ-ın rəsmi strukturları ilə yaxından işləməsi və dövlət büdcəsi hesabına maliyyələşdirilməsidir. ABŞ-ın erməni lobbisi ilə sıx əlaqələri olan bəzi fərdlər də bu prosesə cəlb olunublar. ABŞ administrasiyasından gözləntimiz bu dövlət büdcəsi hesabına maliyyələşən təsisatların anti-Azərbaycan kampaniyasına aydınlığın gətirilməsidir. İndiyə olan təəssürat ondan ibarətdir ki, bu, Azərbaycan-ABŞ əlaqələrinin inkişafını istəməyən şəxslər tərəfindən idarə olunur və hətta onlar əvvəlki administrasiyaların dövründə qazanılmış ikitərəfli əlaqələrə daha çox zərbə vururlar”.

***

Təbii ki, bu, yalnız cənab Məmmədyarovun, XİN-in və yaxud iqtidar mediasının ənənəvi mövqeyi deyil, ümumən Azərbaycanda qarışıqlıq ssenarilərindən ciddi narahatlıq keçirən hakimiyyətin yanaşmasıdır. Bu xüsusda diqqəti ən əvvəl belə demək mümkünsə, ABŞ-la təbliğati savaşa ilk dəfə olaraq iqtidarın “ağır topları”nın cəlb edilməsi çəkir. Hər halda, indiyədək belə şey olmayıb. Digər bir özəllik prosesin Avropa Birliyinin (AB) mayın 21-də başlayacaq Riqa sammiti ərəfəsində vüsət almasıdır. Bəllidir ki, həmin sammitə Azərbaycan da ən yüksək iştirak dəvəti alıb.

Maraqlıdır ki, Azərbaycan XİN rəhbərinin yuxarıdakı ultimatum xarakterli açıqlaması Birləşmiş Ştatların səfirliyinin, ardınca isə ABŞ Dövlət Departamentinin Kerriyə ünvanlı ittihamları rədd eləməsindən sonraya təsadüf edir. Deməli, rəsmi Vaşinqtonun açıqlamaları Bakıda qaneedici sayılmayıb.

Bütün bunlardan sonra istər-istəməz belə bir sual doğur: Rəsmi Bakı Amerika ilə münasibətləri niyə daha da kəskinləşdirir? Azərbaycan iqtidarında hansı narahatedici məlumatlar var ki, prezidenti xarici siyasətdə təmsil edən əsas adamın - Məmmədyarovun dilindən bu cür açıqlamalar səsləndirilir? Bütün bunlardan sonra Azərbaycan Amerika münasibətlərinin taleyi necə olacaq? Və bu prosesdə



Elmar Məmmədyarov



Bahar Muradova

Rusiya amili nə dərəcədə rol oynayır?

Bu sualları ekspertlərə verməmişdən əvvəl onu deyək ki, üzdə Ağ Ev sanki ölkəmizə xeyli önəm verir. Rusiya isə, əksinə, hər zaman suverenlik və müstəqilliyimizə təhdid faktoru olub.

Bəs bütün bunların fonunda, anti - Rusiya deyil, anti - Amerika ritorikasının səbəbləri nədir?

Bu məqamda xatırladaq ki, Rusiya Xarici İşlər Nazirliyi Azərbaycan da daxil, Avropa Birliyinin “Şərq tərəfdaşlığı” proqramının üzvü olan 5 ölkəni hədələmiş, onların rəhbərlərini qurumun Riqada keçiriləcək sammitində iştirakdan çəkinməyə çağırmışdı, əks təqdirdə, “müvafiq tədbirlər görüləcəyini” bəyan eləmişdi. Çünki XİN-in mövqeyinə görə bu, bir anti-Rusiya sammiti olacaq.

***

**Bu məsələ ilə bağlı rəyini aldığımız Milli Məclis sədrinin müavini Bahar Muradova “Yeni Müsavat”a açıqlamasında deyib ki, öncə bir məqamı dilə gətirmək lazımdır ki, Amerikada və Qərb ölkələrində bəzi dairələr Azərbaycanla Qərbin, eləcə də Azərbaycan-Amerika münasibətlərini korlamaq istəyirlər. Azərbaycan rəsmiləri də bu prosesə cavab verirlər:** “Azərbaycanın xarici siyasət idarəsinə rəhbərlik edən, cavabdehlik daşıyan şəxslərin, eləcə də Azərbaycanın ictimai-siyasi elitasında olan hər kəsin ölkəmizə yönəlik bu cür kampaniyalara, beynəlxalq təşkilatların rəsmilərinin, lap elə ictimai-siyasi xadimlərinin açıqlamalarına cavab vermək hüququ var”.

**B.Muradova qeyd edib ki, Azərbaycanla bağlı qərəzli hesabatlar yayanlar,** “... ölkəmizə qarşı qara piar kampaniyasını həm təşkil edənlər, həm də onun elementinə çevrilənlər məlumatsızlıqdan, yaxud da məlumatlarının yalnız bu xarakterli olmasından belə açıqlamalarla çıxış edirlər. Aydındır ki, bunun arxasında müəyyən maraqlar və seçilmiş formada da qərəz var. Ona görə də biz bunun qərəzli olduğunu, həqiqətə söykənmədiyini, bu məlumatların meydana çıxması üçün faktların, ciddi arqumentlərin olmadığını, əksinə, Azərbaycana qarşı obyektiv olmayan, qərəzə söykənən, bu və ya digər maraqları güdən münasibətlərin olduğunu vurğulamalıyıq. Azərbaycan rəsmiləri də məhz bu vəzifəni yerinə yetirirlər”.

**Vitse-spiker dedi ki, rəsmilərimiz münasibətləri korlamaq üçün yox, əksinə, onu aydınlaşdırmaq üçün bu açıqlamaları verir:** “Gözlə görülməsi bir halda Azərbaycana qarşı qaralama kampaniyasını aparanların cavabını vermək bizim vəzifəmiz və borcumuzdur”.

**Xanım vitse-spiker ölkəmizdə rəsmi səviyyədə anti-Amerika ritorikasının olması barədə fikirləri də əsassız sayır:** “Biz öz siyasətimizi yeridirik. Azərbaycan prezidenti, ölkənin müvafiq dövlət qurumları mövcud durumda lazım bildiyi, vacib olanı və məqsədəmüvafiq bildiyi addımları atır. Bunu kim necə dəyərləndirir, hansı məqamlara bağlayır, izah etmək üçün hansı arqumentlər gətirir, bu, onun öz işidir. Amma o siyasətin mahiyyəti o siyasəti yeridənlərə məlumdur və onlar da bu münasibətlərin, bu siyasətin doğruluğuna inanırlar. Zaman da bu siyasətin doğruluğunu sübut etməkdədir. Azərbaycan yaxın-uzaq qonşuları, müttəfiqləri, istənilən ölkə ilə münasibətlərini öz ölkəsinin, xalqının maraqlarına uyğun şəkildə, eləcə də qarşı tərəfin mövqelərini nəzərə almaqla qurur. Bir ölkə ilə olan münasibəti üçüncü bir ölkə ilə münasibətlərdə nə şərt kimi götürülür, nə də ona təsir etməsinə Azərbaycan imkan vermir. Yürüdülən bu siyasətin özəlliyi də ondan ibarətdir ki, Azərbaycan bu məsələləri bir-birinə qarışdırmamaqla ona qarşı olan münasibətlərdə də üçüncü bir mövqenin əsas götürülməsinə imkan verməməyə çalışır. Beynəlxalq hüququn prinsipləri və tərəfdaşlığı ikitərəfli münasibətlərin əsas məzmununu təşkil etməlidir. Çox təəssüf ki, biz beynəlxalq ictimai-siyasi münasibətlərdə çox zaman bu halların pozulduğunu, təhrif olunduğunu görürük”. Vitse-spiker əlavə edib ki, bu səbəbdən Azərbaycan haqlı olaraq öz mövqeyindən çəkilmir və öz yeritdiyi siyasətin mahiyyətinə, məzmununa uyğun açıqlamalar, mövqelər sərgiləyir.

**Müşahidə olunan gərginliyə rəğmən B. Muradova güman etmir ki, Azərbaycan-ABŞ münasibətləri Amerikada, yaxud Azərbaycanda olan bəzi “xırda-para adamların”, yaxud kənardan, üçüncü ölkə ərazisindən, tamam başqa dairələrdən bu münasibətləri korlamaq istəyən insanların istəyinə rəğmən pisləşməyə doğru gedəcək:** “Düşünmürəm ki, biz strateji müttəfiqliyi ayrı-ayrı şəxslərin cılız maraqlarına qurban verəcəyik. Bu, qətiyyən belə olmayacaq və bu sahədə də məsələlər öz yerini tapacaq. Amma əlbəttə ki, hər kəsə kimliyindən, dövlətdə rəsmi mövqe tutub-tutmasından asılı olmayaraq, yeritdiyi siyasətə, atdığı addımlara, verdiyi açıqlamalara uyğun mövqe bildirilməlidir. Azərbaycan da bununla məşğuldur”.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 97 (6125) 6 may 2015

# Jurnalistlərin akkreditasiyası ilə bağlı heç bir problem yoxdur

## XİN: "Avropa Oyunları ilə əlaqədar Azərbaycanda xarici KİV-in akkreditasiya prosesi sadələşdirilib"

**Xarici İşlər Nazirliyi "Yeni Müsavat"da dərc olunmuş xarici jurnalistlərin siyahısının araşdırılması ilə bağlı yazıya münasibət bildirib. XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Yeni Müsavat"ın sorğusuna cavab olaraq bildirib ki, "Məlumat azadlığı haqqında" və "Kütləvi informasiya vasitələri haqqında" qanunlara əsasən Azərbaycanda mətbuat və ifadə azadlığı tam şəkildə təmin olunub, yerli və xarici KİV nümayəndələrinin Azərbaycan Respublikasının qanunlarına hörmət əsasında öz peşəkar fəaliyyətlərini həyata keçirmələri üçün tam sərbəst mühit var.**



Açıqlamada qeyd olunur ki, Avropa Oyunları ilə əlaqədar Azərbaycanda xarici KİV nümayəndələrinin akkreditasiya prosesi sadələşdirilib.

**Sitat:** "Azərbaycan Olimpiya Xartiyasının məqsəd və məramlarına və fundamental prinsiplərinə sadiqliyini milli, regional və beynəlxalq səviyyədə həyata keçirdiyi uğurlu idman siyasəti ilə sübut edib. Avropa Oyunları da məhz Olimpiya Xartiyasının ruhunda Azərbaycanın ev sahibliyi etdiyi mötəbər və kütləvi idman tədbirlərindən biridir.

Oyunlarla əlaqədar xarici KİV nümayəndələrinin akkreditasiya prosesi sadələşdirilmiş xarakter daşıyır. Birinci Avropa Oyunlarının keçirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 avqust tarixli Sərəncamında Avropa Oyunları ilə əlaqədar akkreditasiya işinin təşkil edilməsi nəzərdə tutulub.

Azərbaycan tərəfindən birinci Avropa Oyunlarında xarici KİV nümayəndələrinin akkreditasiyası məqsədilə bu kimi beynəlxalq kütləvi tədbirlərdə tətbiq edilən qabaqcıl təcrübə də tətbiq olunur. Məmnuniyyətlə qeyd edə bilərik ki, Avropa Oyunları Əməliyyat Komitəsində bu sahədə təcrübəsi olan beynəlxalq və yerli peşəkarlar birlikdə çalışırlar. Xarici KİV nümayəndələrinin akkreditasiyası mərkəzləşdirilmiş qaydada Avropa Oyunları Əməliyyat Komitəsi tərəfindən aparılır".

**Dövlət qurumları tərəfindən Avropa Oyunları Əməliyyat Komitəsinə lazımi dəstək göstərildiyi qeyd olunan açıqlamada prosedurların beynəlxalq standartlara əsasən həyata keçirildiyi bildirilir:** "Olimpiya Xartiyasının ruhuna və məramlarına sadiq qalaraq, KİV nümayəndələrinin akkreditasiyası və oyunlar zamanı KİV-in fəaliyyəti prosesində Beynəlxalq Olimpiya Komitəsi və Avropa Olimpiya Komitəsi tərəfindən KİV-lərlə əlaqədar nəzərdə tutulan qaydaların həyata keçirilməsi təmin olunur və olunacaq.

Birinci Avropa Oyunlarını işıqlandırmaq üçün 900-ə yaxın beynəlxalq, 600-dən artıq yerli media nümayəndəsi akkreditasiya üçün müraciət edib. Bundan əlavə, çoxlu sayda beynəlxalq yayım şirkəti tərəfindən Avropa Oyunları işıqlandırılacaq. KİV nümayəndələrinin öz fəaliyyətlərini effektiv həyata keçirmələri üçün bütün texniki parametrlərə cavab verən Media Kəndi də yaradılıb. Beynəlxalq KİV nümayəndələrinin Azərbaycana olan bu marağını yüksək qiymətləndiririk.

Akkreditasiyadan keçmiş KİV nümayəndələrinin Azərbaycan ərazisinə daxilolma qaydaları da sadələşdirilib. Belə ki, Avropa Oyunları Əməliyyat Komitəsi tərəfindən veriləcək akkreditə kartı və şəxsiyyəti təsdiq edən sənəd əsasında beynəlxalq media nümayəndələri Azərbaycan ərazisinə vizasız daxil ola biləcəklər. Avropa Oyunlarını işıqlandırmaq üçün beynəlxalq media nümayəndələrini Azərbaycanda məmnuniyyətlə gözləyirik".

"I Avropa Oyunlarını işıqlandırmaq üçün Azərbaycana gələcək xarici jurnalistlərdən bəzilərinin akkreditasiyasının ləğv ediləcəyi haqda iddiaların heç bir əsası yoxdur. Avropa Olimpiya Komitəsinin də dəfələrlə açıqladığı kimi, Azərbaycana gələcək jurnalistlər üçün tam fəaliyyət şəraiti təmin olunub". Bu açıqlamanı musavat.com-a Azərbaycan hakimiyyətində təmsil olunan vəzifəli dövlət adamı verib. O deyib ki, "Yeni Müsavat" qəzetinin bu barədə yaydığı məlumatın heç bir faktiki əsası yoxdur: "Jurnalistlərin akkreditasiyası da, onların Bakıda göstərəcəyi fəaliyyət də tamamilə azaddır, onların işləməsi üçün bütün şərait təmin olunub".

**Musavat.com Avropa Olimpiya Komitəsi ilə də əlaqə saxlayıb. Oradan rəsmən bildirilib ki, bu məlumatların heç bir əsası yoxdur:** "Avropa Olimpiya Komitəsinin sədri Patrik Hikki də dəfələrlə bəyan edib ki, Azərbaycan rəhbərliyi ilə işləməkdən olduqca məmnundur. Azərbaycan hakimiyyəti Bakıya gələcək jurnalistlərin akkreditasiyası və burada işləməsi üçün tam zəmanət verib. Bu zəmanət hazırda da qüvvədə qalır və heç bir dəyişiklik yoxdur".

❑ Kənan RÖVŞƏNOĞLU

# Sabir Rüstəmxanlıya qardaşı oğlundan cavab gəldi

## Türkel Rüstəmxanlı: "Kimsə Sabir bəyə təhsillə bağlı çıxdığımızı deyibsə..."

**Son günlərin ən aktual mövzularından biri VHP sədri, deputat Sabir Rüstəmxanlının qardaşı Əlövsət Əliyev və ailəsinin Almaniyaya mühacirət etməsidir. İstər Rüstəmxanlıların fikirlərində, istərsə də Sabir Rüstəmxanlının bu məsələyə mövqeyində bəzi təzadlar meydana çıxıb.**



Belə ki, Rüstəmxanlılar Azərbaycanda təzyiqlərə məruz qaldıqlarını və bu zaman qohumları tərəfindən müdafiə olunmadıqlarını iddia ediblər. VHP sədri isə "Yeni Müsavat"a açıqlamasında qardaşı və ailəsinin mühacirətə getməyindən xəbərsiz olduğunu söyləyib.

Əlövsət Əliyevin oğlu Türkel Rüstəmxanlı Azərbaycanda siyasi mövqeyinə görə təqib edildiyini bildirib. Sabir Rüstəmxanlı isə "Yeni Müsavat"a müsahibəsində qardaşı oğlunun həyat yoldaşının xaricdə təhsil aldığını və ona görə ora getdiyini qeyd edib.

**Əmisinin barəsindəki fikirləri ilə bağlı Türkel Rüstəmxanlının mövqeyini aldıq. O, xaricə həyat yoldaşı ilə bağlı getməsi fikirlərinin həqiqət olmadığını bildirdi:** "Viersen şəhəri haqqında internetdən məlumat ala bilərsiz. Burada universitet olsaydı, yarımçıq qalmış təhsilimi davam etdirərdim. Ölkədən çıxdığım gün Sabir bəy ölkədə deyildi. O, İstanbulda idi".

**T.Rüstəmxanlı əmisi ilə İstanbulda DAK-ın qurultayında görüşdüyünü təsdiqlədi:** "DAK-ın qurultayında çoxdan görmədiyim dost-tanışlarla görüşdüm. Təbii ki, Sabir bəylə də görüşdük".

**Gənc fəal söhbətimizin bu yerində bir daha mübahisəyə ehtiyac duymadığını, işinin yalnız alman dili öyrənmək olduğunu söylədi:** "Mənə vacib olan alman dili və dərslərimdir. Artıq mübahisəyə ehtiyac duymuram. Əgər kimsə Sabir bəyə bizim təhsillə bağlı çıxdığımızı deyibsə, deməli, yanında adam olub, hər şeyi olduğu kimi bilməyib. 2013-cü il ağır il oldu. Həm ailəmiz, həm də ölkəmiz üçün. Düşünürəm ki, burada bütün mübahisələrə son qoyaq və mən öz alman dili təhsilimi davam etdirim".

❑ Cavanşir ABBASLI

# AzTV sədrinin müavinləri işdən çıxarıldı

## Radio üzrə müavin Elsevər Dünyamalıyev, televiziya üzrə müavin isə Rəşad Nəsirov təyin olunub

**Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətində kadr dəyişikliyi baş verib. Prezident İlham Əliyevin sərəncamı ilə AzTV sədri Arif Alışanovun iki müavini - Cavanşir Cahangirov və Faiq Hüsiyev tutduqları vəzifədən azad olunublar.**


Arif Alışanov

Bu barədə modern.az saytına Azərbaycan Televiziya və Radio Verilişləri Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Xatirə Qasımova məlumat verib.

Xatirə Qasımova qeyd edib ki, onların yerinə yeni müavinlər gətirilib:

"Radio üzrə müavin Elsevər Dünyamalıyev, televiziya üzrə müavin isə Rəşad Nəsirov təyin olunub".

Yeni sədr müavini Elsevər Dünyamalıyev 1967-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olub. Bakı Dövlət Universitetinin kitabxanaçılıq-biblioqrafiya fakültəsini bitirib. 1997-ci ildən Azərbaycan Televiziyası Qapalı Səhmdar Cəmiyyətində çalışır. AzTV-nin proqram direksiyasının redaktoru, baş redaktoru olub. 2009-cu ildən "İdman-Azərbaycan" telekanalına direktor təyin olunduğu vaxtadək AzTV-nin proqram direksiyasında şöbə müdiri işləyib.

E.Dünyamalıyev bu il aprelin 7-də AzTV, "Mədəniyyət" və "İdman Azərbaycan" kanallarında baş direktor vəzifəsinə gətirilmişdi.

Yeni sədr müavini Rəşad Nəsirov 24 iyul 1977-ci ildə Bakıda anadan olub. 1994-cü ildə Nərimanov rayonu 39 nömrəli məktəbi bitirib, 1999-cu ildə Azərbaycan Dövlət İncəsənət Universitetinin sənətşünaslıq ixtisası üzrə bakalavr, 2001-ci ildə isə magistr pilləsini bitirib. Həmçinin 2002-2005-ci illərdə Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq - beynəlxalq münasibətlər fakültəsində qiyabi təhsil alıb.

1997-ci ildən 2001-ci ilə kimi ANS TV-də, 2002-2005-ci illərdə "Lider" TV-də aparıcı-redaktor vəzifələrində çalışıb.

2001-2002-ci illərdə Dövlət Sərhəd Xidmətinin Xudat sərhəd dəstəsində həqiqi hərbi xidmət keçib.

2005-ci ildə İctimai Televiza və Radio Yayımları Şirkətinin "İnformasiya" departamentində işə düzəlib.

2010-cu ildən "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-də baş redaktor vəzifəsində çalışırdı.

# AMİP-ə də Prezident Administrasiyasından dəvət gəlib

## Yusif Bağırzadə: "Qeydiyyatdan keçən və keçməyən bütün partiyaların iştirak etdiyi format olacaqsa, belə çıxır ki, bu, sadəcə, dəyirmi masadır"

**Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun adından bu ay siyasi partiyalarla növbəti görüşün keçirilməsi barədə AMİP sədri Yusif Bağırzadəyə təklif göndərilib. Bu barədə "Yeni Müsavat"a Yusif Bağırzadə məlumat verib. Onun dediyinə görə, PA-dan ona bildiriblər ki, mayın 13 və ya 16-da Əli Həsənovla siyasi partiyaların üçüncü görüşünün keçirilməsi nəzərdə tutulur.**


Yusif Bağırzadə

Ancaq Y.Bağırzadəyə görüşdə hansı mövzunun müzakirə ediləcəyini deməyiblər: "Mən mətbuatdan bildim ki, növbəti görüşdə "I Avropa İdman Oyunlarına münasibət" mövzusuna müzakirələrin aparılması təklif olunur. Bizə görüşün formatı barədə heç nə deyilməyib. Ancaq mediadan oxudum ki, KXCP və digər bir neçə partiyalara formatın necə nəzərdə tutulduğu haqda məlumat verilib. Belə məlum olub ki, əvvəlki format dəyişilir və daha geniş formatda görüş planlaşdırılır. Əvvəlki görüşdə 17 dövlət qeydiyyatından keçmiş siyasi partiya təmsil olunurdusa, indi dövlət qeydiyyatından keçən və keçməyən bütün partiyaların iştirakı istənilir. Bu, bir tərəfdən təqdir olunandır. Lakin nəzərə almaq lazımdır ki, 12 fevralda keçirilən ikinci görüşdə hazırkı formatın hələ dəyişməməsi barədə qərar verilmişdi. Qərarda deyilirdi ki, formatın dəyişdirilməsi lazım gələrsə, iştirakçı partiyalara öncədən məlumat verilsin, onların mövqeyi öyrənilsin və ümumi razılıq olandan sonra format dəyişilə bilər. İndi belə bir konsensus əldə olunmadan birbaşa qeyd olunursa ki, qeydiyyatdan keçən və keçməyən bütün partiyaların iştirak etdiyi format olacaq, belə çıxır ki, bu, sadəcə, dəyirmi masadır. Ona görə də yəqin ki, dəyirmi masa olacaq, bunu başlanan görüşün üçüncü raundu hesab eləmək olmaz. Bu isə əslində ikinci görüşdəki razılaşmanın müəyyən mənada pozulması hesab oluna bilər.

AMİP-in müvafiq strukturu Prezident Administrasiyasından gələn dəvətlə bağlı, iştirak edib-etməməklə bağlı müzakirə aparacaq və qərar veriləcək".

**Y.Bağırzadə Avropa Oyunları ərəfəsində müzakirə mövzusu olaraq Avropa Oyunlarına münasibət məsələsinin seçilməsini məqbul hesab etdiyini vurğuladı:** "Əlbəttə ki, Avropa Oyunları ilə bağlı ölkədəki siyasi təşkilatlar münasibət bildirməlidir".

PA-dan görüş üçün təklif ünvanlanan "Azadlıq-2015" seçki blokundakı partiyaların rəhbərlərinin isə bu gün toplantısı keçiriləcək. Toplantıda görüşlə bağlı təklifə rəsmi cavabın veriləcəyi gözlənilir.

❑ Etibar SEYİDAĞA



# Qərbə inam niyə azaldı?

Azər RƏŞİDOĞLU

**Azərbaycan niyə Qərbə bu qədər inamsız oldu? Ölkəmiz müstəqilliyini elan edəndə çoxları belə düşünürdü ki, öz neftini Rusiyadan yan keçməklə Qərbə nəql edən Bakı Qarabağ məsələsində dünyanın böyük dövlətlərinin dəstəyini qazana və münaqişənin ölkənin ərazi bütövlüyü çərçivəsində həllinə nail ola bilər. Bu, romantik nəticə deyildi. Belə təhlillər aparmaq üçün arqumentlər kifayət qədər ciddi idi.**

ABŞ başda olmaqla nüfuzlu Qərb dövlətləri enerji ehtiyatları ilə zəngin Xəzər bölgəsində möhkəmlənməyə çalışırdılar. Bu məsələdə Azərbaycan önəmli oyunçu idi və Rusiyanın, İranın güclü təzyiqlərinə baxmayaraq enerji ehtiyatlarının alternativ marşrutlarla dünya bazarlarına çıxarılması üçün ciddi addımlar atırdı.

Məhz belə bir vaxtda Qərbin güclü dəstəyi sayəsində Bakı-Tiflis-Ceyhan kəməri layihəsi razılaşdırıldı. Lakin bölgədə daha da möhkəmlənmək üçün təkcə enerji layihələri kifayət etmirdi və Dağlıq Qarabağ münaqişəsi kimi kifayət qədər geniş bölgəni qarışdıra biləcək təhlükəli münaqişənin də həlli lazım idi. Amma Azərbaycan neftini əldə edən Qərbdən bu münaqişənin həlli üçün gözlənilən dəstək gəlmədi. Əksinə, ABŞ Konqresi tərəfindən qəbul edilən bədnam 907-ci düzəliş sayəsində Azərbaycan uzun müddət bu ölkənin yardımlarından məhrum oldu, Amerika, digər Qərb dövlətləri təcavüzkar Ermənistana heç bir əməli təzyiq göstərmədi və münaqişə həll edilməmiş qaldı. Beləliklə də Azərbaycanda haqlı məyusluq yarandı: bir halda ki, Qərb Qarabağ məsələsində Azərbaycana heç bir əməli kömək etmir, Rusiya və İran kimi qonşularla təhlükəli oyuna girib ölkənin zəngin neft ehtiyatlarının üzünü Qərbə çevirmək nəyə lazım idi?

Qarabağ münaqişəsi bölgəsində vəziyyətin gərginləşdiyi və danışıqların dalana dirəndiyi bir vaxtda Azərbaycan bu dəfə qaz ehtiyatlarından istifadə edərək Ermənistana təsir imkanları əldə etməyə çalışırdı.

Qeyd edək ki, Azərbaycan indi qaz ehtiyatlarına görə dünyanın aparıcı dövlətlərinin və region ölkələrinin diqqət mərkəzindədir. Lakin Bakı 90-cı illərin ortalarında mövcud olan intuziazimla hərəkət etmək və Qarabağ məsələsində dəstəyə ümid edərək Qərbin irəli sürdüyü bütün layihələrə qatılmaq, digər variantları isə bir kənara qoymaq fikrində deyil.

Qarabağ münaqişəsinin həlli üçün regional oyunçuların və böyük dövlətlərin dəstəyini əldə etməyə, Ermənistanın təcrid olunmasını davam etdirməyə və ölkənin mövqelərini gücləndirməyə çalışan Bakı Qərblə məsafə saxlamağa səy göstərir. Təsadüfi deyil ki, Azərbaycanla Rusiya arasında danışıqlar Qarabağ münaqişəsinin həllinə dair təşəbbüslər kontekstində keçirilir. Lakin Azərbaycan malik olduğu enerji ehtiyatlarından Qarabağ məsələsində təkcə beynəlxalq siyasi və diplomatik dəstək ala bilmək üçün istifadə etmir. Bu amil daha mühüm olan imkanlar - ordunu gücləndirmək, hərbi potensialı artırmaq və düşmən ölkə ilə müqayisədə hərbi balansı öz xeyrinə dəyişmək imkanları da açır. Ermənistan vaxtilə Qərbdə və Avropadakı güclü erməni lobbisi sayəsində Bakının enerji amilindən Qarabağ məsələsi üçün faydalanmaq səylərini xeyli ölçüdə neytrallaşdıra bildi. Ancaq Azərbaycanın neft-qaz gəlirləri hesabına sürətlə inkişaf etməsi və hərbi potensialını gücləndirmək üçün davamlı addımlar atması düşmən ölkəni ciddi narahat edir. Erməni lobbisi də indi bu durum qarşısında nəsə edə bilmir. Azərbaycan böyük neft gəlirlərinin ölkəyə daxil olması ilə paralel öz hərbi büdcəsini dəfələrlə artırıb. Artıq Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsinin həcmindən çoxdur.

Lakin hər ötən il Azərbaycanı Qarabağdan daha çox ayırır. Xalq bu münaqişənin tezliklə həllini istəyir. Bu baxımdan, Qərbin ölkəmizdə möhkəmlənməsi Qarabağ probleminin həllindən keçir. Hansı dövlət bu münaqişənin həllində Azərbaycanın yanında olacaqsa, ictimai rəy də həmin ölkəni xilaskar kimi qəbul edəcək. Romantizm artıq arxada qaldı və insanlar real addımları qiymətləndirirlər...

# Rektor deputatlar "ya mandat, ya vəzifə" dedilər

**Xəbər verdiyimiz kimi, builki parlament seçkilərində ayrı-ayrı dövlət qurumlarına, dövlət universitetlərinə rəhbərlik edənlər seçim etməli olacaqlar. Hazırda Milli Məclisdə təmsil olunan şəxslər arasında müxtəlif dövlət və özəl ali təhsil ocaqlarının rektorları var.**

Azərbaycan Dillər Universitetinin rektoru Səməd Seyidov, Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, Azərbaycan Müəllimlər İnstitutunun rektoru Aqiyə Naxçıvanlı, və Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev mandat daşıyırlar.

Yayılan xəbərlərlə bağlı deputat-rektorların ikisi ilə əlaqə saxladıq.



**Aqiyə Naxçıvanlı:** "Əgər elə bir qərar olsa, Milli Məclisdə əyləşən hər bir rektor öz qərarını verəcək"



**Əhməd Vəliyev:** "Mən özəl universitetin rektoruyam, ona görə də bu məsələ məni maraqlandırmır"

**"Yeni Müsavat"a açıqlama verən Azərbaycan Müəllimlər İnstitutunun rektoru Aqiyə Naxçıvanlı qeyd etdi ki, belə bir qərar verilsə, onlar seçim etməli olacaqlar:** "Əvvəla, biz bilmirik ki, bu məsələni kim qabardır. İkincisi də bu, qərar deyil, sadəcə, fikirlərdir. Fikirlər də müxtəlif ola bilər. Əgər elə bir qərar olsa, Milli Məclisdə əyləşən hər bir rektor öz qərarını verəcək. Mətbuatda yazılan hələ qərar deyil. Mən rektor olan şəxsin deputat olmasında problem görmürəm. Ancaq belə bir qərar ola bilər. Hələ ki bu haqda heç bir rəsmi göstəriş yoxdur. Əgər nə vaxtsa bu qərar verilsə, həmin şəxslər özləri seçəcəklər ki, rektor olsunlar, yoxsa deputat".

**Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev "Yeni Müsavat"a açıqlamasında bu məsələnin qanunvericilik çərçivəsində həllinə tərəfdar olduğunu bildirdi:** "Mən dövlət məmuru deyiləm, çünki özəl universitetin rektoruyam. Ona görə də bu məsələ məni çox da maraqlandırmayıb. Bunun özəl sektora aidiyyəti yoxdur. Dövlət universitetlərinin rektorları prezidentin sərəncamı ilə təyin olunduğuna görə onların deputat olmasının əleyhinə çıxış edirlər. Lakin millət vəkili seçkiləri ilə bağlı qaydalarda da yazılıb ki, təhsil müəssisələrində çalışanlar istisna olmaqla. Bir tərəfdən qanunda qeyd olunub, digər tərəfdən, prezidentin bu barədə sərəncamı var. Bu baxımdan hələ ki bu haqda qərar verilməyib. Mənim dəqiq informasiyam yoxdur. Bir vaxtlar İlyas İsmayılov bu məsələni qaldırmışdı, müzakirələr getdi, sonradan ara sakitləşdi. İndi isə qanun çərçivəsində qərar veriləcək ki, kimlər iştirak edə bilər, kimlər yox. Mən hesab edirəm ki, qanunda bu tam şəkildə öz əksini tapmış olacaq".

**Əhməd Vəliyev onu da vurğuladı ki, qonşu Türkiyədə nazirlərin hamısı millət vəkilləridir:** "Belə çıxır ki, onlar da iki vəzifə aparır. Bir vəzifənin digərinə mane olması belədir ki, işləyənə iş çoxdur, işləməyən üçün də ümumiyyətlə iş yoxdur. Əgər bir insan həm rektor kimi öz işinin öhdəsindən gəlir, həm də parlamentdə qanunların qəbul olunması ilə bağlı öz təkliflərini səsləndirə bilirsə, niyə də olmasın? Türkiyə kimi böyük ölkədə niyə nazir həm də millət vəkili ola bilir, bizdə də ola bilər. Mən belə düşünürəm. Hətta özəl sektorda olsa belə, əgər millət vəkili həm də biznes fəaliyyəti ilə məşğuldursa, bu da eyni məsələdir. Əgər bir fəaliyyət digərinə mane olursa, insan özü oradan uzaqlaşa bilər. Məncə, bu, qanun çərçivəsində həllini tapmalıdır. Seçki ərəfəsində bunlar hamısı məlum olacaq".

❑ Nərgiz LİFTİYEVA

# Arif Hacılının müavinlərindən sərt açıqlamalar



**Səxavət Soltanlı:** "Əslində heç bir partiya fəaliyyəti ilə məşğul olmayan insanlar yoxluqlarını rəsmiləşdirirlər"



**Osman Kazımov:** "Sən Müsavat Partiyasını tanımırsansa, Müsavat da səni tanımır"

**Vurğun Əyyubun Müsavat Partiyasından xaric edilməsindən sonra partiyanın Mərkəzi Nəzarət-Təftiş Komissiyasının (MNTK) sabiq sədri İbrahim İbrahimli partiyadan istefa verdiyini açıqlayıb. İ.İbrahimli Müsavat rəhbərliyinin hazırkı idarəçiliyinə etiraz olaraq bu addımı atdığını deyib: "Müsavat Partiyasının indiki rəhbərlərinin partiyada fərqli düşünən insanlara qarşı repressiv qərarlarına, avtoritar üsul-idarəçiliyinə etiraz edərək, Müsavat Partiyasından çıxdığımı bildirirəm".**

Müsavat başqanının müavini Səxavət Soltanlı isə "Yeni Müsavat" bildirib ki, adları uzun müddətdən bəri partiyada formal olaraq qalan, əslində heç bir partiya fəaliyyəti ilə məşğul olmayan insanlar yoxluqlarını rəsmiləşdirir: "Müsavat demokratik partiyadır, odur ki, onların bu hüququnu əlindən heç kim ala bilməz. Müsavat Partiyasında heç kimə Surət Hüseynovun və Ələkrəm Hümmətovun 1992-1993-cü ildə Azərbaycanda davrandığı kimi davranmasına imkan verilməyəcək".

**Müsavat başqanının digər müavini Osman Kazımov isə teleqraf.com-a açıqlamasında daha sərt xəbərdarlıq edib. O bəyan edib ki, nizamnaməni pozanlar bundan sonra da cəzalandırılacaq:** "Vurğun Əyyub dəfələrlə bildirib ki, partiyanın strukturlarını tanımır. Adamdan soruşarlar ki, strukturlarını tanımadığın partiyada niyə qalırsan? İnsan ilk növbədə özünə hörmət edər. Yalandan deyirlər ki, Vurğun Əyyubun çıxarılması məsələsi partiya rəhbərliyində müzakirə olunub. Yalan deyirlər. Özək təşkilatının qərarından bir gün sonra xəbərimiz olub. 2011-ci ildə onu çıxarmışdılar, amma rayon təşkilatı özəyin qərarını ləğv etdi. Vurğun Əyyub və onun tərəfdarlarının müsahibələrinə, açıqlamalarına baxın. Başdan-ayağa təhqiramiz, aşağılayıcı fikirlər işlədirlər. Başqa partiyada bu qədər ərköyünlük edə bilməzdilər. Sən Müsavat Partiyasını tanımırsansa, Müsavat Partiyası da səni tanımır. Kiminsə partiya qarşısında xidmətləri olubsa, bu, o demək deyil ki, istədiyi hərəkəti edə bilər".

**O.Kazımov qeyd etdi ki, V.Əyyub özəyin qərarının ləğvini istəyirsə, Binəqədi Rayon Təşkilatına müraciət etməlidir. Amma o, açıqlamasında rayon təşkilatını tanımadığını deyib:** "Özək onu dəvət edib, deyib xəstədir. Necə olur, Qubad İbadoğlu xəstə olur, Ellada Məmmədli xəstə olur, Vurğun Əyyub xəstə olur, amma ADR-i yaradanda, rayonlarda konfranslar keçirəndə xəstə olmurlar. Heç kəsin şərəfi digərindən üstün deyil. Mənim Müsavat Partiyası qarşısındakı xidmətlərim Vurğun Əyyubun xidmətlərindən heç də az deyil. Onun partiyaya çəkdiyi xərclər mənim çəkdiyim xərclərdən böyük deyil, amma bu günə qədər bu barədə danışmamışam. Aylarla, illərlə həbs olunan müsavatçılarla birlikdə həbsxana həyatı yaşamışam. Elə hazırda Qubad İbadoğlunun tərəfini saxlayanları da vaxtilə təmənnasız müdafiə etmişəm. Hamısının halal xoşu olsun. Vurğun Əyyub bunu edibmi?"

**O.Kazımova görə, Müsavat Partiyasının sonuncu qurultayının nəticələrinə etiraz olaraq V.Əyyub və digərlərinin nizamnaməni pozması cavabsız qalmayacaq:** "Qurultayda Vurğun Əyyubun avtomobilində Qubad İbadoğlunun xeyrinə səslər yazılırdı. Bizdə bunun fotosu da var. Amma müəyyən səbəblərə görə bunu ictimaiyyətə açıqlamadıq. Hər şeyin həddi var. İnsana nə qədər güzəştə getmək olar. Kimsə ərköyünlük edəcəksə, bunu kənarda etsin. Hədə-qorxu ilə bizi nədənsə çəkindirmək olmaz. Bundan sonra da nizamnaməni pozanlar cəzalandırılacaq".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 97 (6125) 6 may 2015

# Soros Fondunda çalışmış azərbaycanlılar milyarderə qarşı ittihamlardan danışdılar




**30 milyardlıq varidatı ilə dünya siyasətinə təsir etmək imkanlarına malik olan Corc Sorosun adı ətrafında qalmaqal yaşanır. ABŞ mediası Açıq Cəmiyyət İnstitutunun sədri Corc Sorosun 7 milyard dollar vergi borcu olduğunu ortaya çıxarıb.**

Amerika mediasının yazdığına görə, milyarder qanunvericilikdəki boşluqlardan yararlanaraq bu məbləğdə vergini ödəməkdən yayınıb. Lakin məsələ bitməyib və vergi orqanları borcun ödənməsi üçün yaxın günlərdə prosedurlara başlamağa hazırlaşır.

Postsovet məkanındakı rəngli inqilabların dəstəkvericisi və ilhamvericisi statusunu qazanmış Sorosun adı ətrafında dolaşan bu müzakirələrin nə dərəcədə səhih məlumatlara əsaslandığını demək çətindir. Elə bunu bizə azərbaycanlı ekspertlər, vaxtilə Bakıda fəaliyyət göstərən Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun İdarə Heyətində təmsil olunmuş şəxslərlə danışdıq.

**2010-cu ilin yazınadək fondun Bakı nümayəndəliyində çalışmış deputat Rasim Musabəyov Sorosun günahlandırılmasına birmənalı yanaşmır:** "Hər bir biznesmen çalışır ki, qanunun imkan verdiyi boşluqlardan öz xeyrinə istifadə etsin. Necə ki, Soros bundan istifadə edib. Demək olar ki, biznesmenlər hamısı bu cür yararlanır. Təbii ki, gəlirlər yüksək vergi altındadır. Soros o gəlirləri öz fondu vasitəsilə reindestisiya edirdi. İnvestisiyalar da vergidən azad olunur. Soros gəlirləri bölüşdürərək təzədən fonduna qoyurdu, yəni oyuna istifadə edirdi, dövr etdirirdi. Bunun nəticəsində də vergidən yayınma baş verirdi. Qanun buna imkan verirdisə, niyə də yararlanmasın? O, biznesmen adamdır". **R.Musabəyov Sorosun buna görə ölkə qanunları qarşısında məsuliyyət daşıdığını da zənn etmir:** "Qanunun geriyə qüvvəsi yoxdur. Sadəcə olaraq, əvvəl-axır onun fondunda toplanan pullar ola bilsin hansısa şəkildə dövlətə qayıdacaq. Çünki sabah dövlətdən boyun qaçıra bilməyəcək. 90 faizdən çox varislik vergisi var. Nə vaxtsa toplanan vəsait gəlir kimi aşkar olunduğu halda dövlət onun böyük hissəsini öz xeyrinə alacaq. Sadəcə olaraq, Soros oyunçudur, əlinin altında böyük məbləğdə pulun olması onun üçün vacib idi ki, böyük əməliyyatları həyata keçirsin".



**Rasim Musabəyov:**
"Bir çox hallarda o, Amerikanın mövcud hökumətinin kim olacağı məsələsinə də müdaxilə edir"



**Arzu Abdullayeva:**
"Əgər Amerikada belə bir məsələ qaldırılıbsa, əsassız ola bilməz"



**Asim Mollazadə:**
"Yalnız Amerika məhkəmələri belə məlumatların nə dərəcədə doğru olub-olmadığını dəqiqləşdirə bilər"

**Politoloq hesab etmir ki, Soros Amerika dövlətinin oyunlarını icra edir:** "Onun öz oyunu var. Bir çox hallarda o, Amerikanın mövcud hökumətinin kim olacağı məsələsinə də müdaxilə edir. Obamanın hakimiyyətə gətirilməsində onun da kifayət qədər rolu olub". **Ancaq bununla belə, R.Musabəyov Sorosun rolunun ABŞ-ın gücündən önə çıxarılmasının tərəfdarı deyil:** "O, böyük oyunların oyunçularından biridir. Bir çox hallarda özünü şişirdilmiş şəkildə qələmə verir, bu da bir piardır. Özünü daha güclü nümayiş etdirməsi ona əlavə dividentlər qazandırır. Amma hər halda, bəli, onun Demokratlar Partiyasında da təsir imkanları var. Fakt budur ki, bu qədər iri məbləğdə pulu xərcləmək mümkün deyil. O, maliyyə oyunçusudur. Kart oynayarkən əlinə böyük pullar gələndə daha böyük oyuna girmək imkanı qazanırsan, Soros da elə". **Maraqlıdır, Soros inqilablarla bağlı missiyasını başa çatdırdı, yoxsa hələ sürprizlərini gözləmək lazımdır? R.Musabəyov:** "İnqilab məsələsində Sorosun rolunu həddindən artıq şişirdirlər. Ukraynadakı "narıncı inqilab"a ola bilsin ki, Soros 5 milyon dollar xərcləyib. Amma məlum olur ki, Berezovski 50 milyon xərcləmişdi. Yaxud Gürcüstandakı "qızılgül inqilabı"nda Sorosun 2 milyon xərci çıxıb. Halbuki İvanişvili, Badri Patakşvili Saakaşviliyə Sorosdan 20 dəfə çox pul xərcləmişdilər. Sadəcə, o birilər özlərini reklam etmirlər, bilirlər ki, onun çox sərt cavabı ola bilər. Soros isə amerikalıdır, özünü bir çox hallarda həddindən artıq reklam edir".

**Helsinki Vətəndaş Assambleyasının Azərbaycan Milli Komitəsinin sədri Arzu Abdullayeva bildirdi ki, Soros haqqında yayılan bu məlumatdan təəccüblənir:** "Çox qəribə məlumatdır. Yeri gəlmişkən, Soros Azərbaycan hökuməti ilə də əməkdaşlıq edib, onun burda investisiya layihələri də var idi. İndiki durumu bilmirəm. Amma əgər Amerikada belə bir məsələ qaldırılıbsa, əsassız ola bilməz. Çünki Amerika demokratik ölkədir. Azərbaycanda əsassız günahlandırma ola bilər və olur da. Ancaq ABŞ-da bu, real görünmür. Mümkündür ki, bu, siyasətin amilləri, nəticələridir. Orda oliqarxlar siyasətçilərlə dinc dillə danışmırlar, vuruşurlar, ola bilsin bu da onun nəticəsidir. Fərz edə bilərik ki, dünyada hansısa anonim mərkəz var və oliqarxlar orda dünya siyasətini və iqtisadiyyatını müəyyənləşdirirlər. Əlbəttə, Soros çox məşhur milyarderdir, ola bilməz ki, o özü də həmin mərkəzin üzvü olmasın. Ancaq niyə belə vəziyyət yaranıb, bu barədə konkret fikir bildirmək olmaz, yalnız bizim mülahizələrimiz ola bilər".

**Amerika siyasətinə yaxından bələd olan deputat, DİP sədri Asim Mollazadə isə bildirdi ki, bu barədə yalnız rəsmi qurumların mövqeyinə istinad etmək olar:** "Yalnız Amerika məhkəmələri belə məlumatların nə dərəcədə doğru olub-olmadığını dəqiqləşdirə bilər. Hətta vergi məsələləri ilə məşğul olan qurum vergi ödəyicisinin etirazı varsa, məhkəmələrin qərarı əsasında müvafiq məlumatı və qərarları yayımlaya bilər. Ona görə də bu istiqamətdə verilən məlumatların həqiqətə uyğun olub-olmadığını bilmək üçün gözləmək lazımıdır". **Sorosun dünya və ABŞ siyasətinə təsirinin nə dərəcədə olduğuna gəldikdə, A.Mollazadə bunları bildirdi:** "ABŞ-da kifayət qədər ciddi siyasi sistem var və bu siyasi sistem hətta çox zəngin iş adamının təsirinin qurbanı ola bilməz. ABŞ-da Sorosdan qat-qat zəngin olan şirkətlər və şəxslər var. Onların da daxili siyasətə müdaxiləsində ciddi məhdudiyyətlər mövcuddur". Deputat deyir ki, Soros bir sıra Şərqi Avropa ölkələrindəki proseslərə zamanında dəstək vermişdi, müvafiq fond yaratmışdı: "Bundan sonra onun bu istiqamətdə nə qədər işləri olacaq, ya olmayacaq, demək çətindir".

❑ **E.PAŞASOY**

# Müxalifət Vaşinqtonla münasibətlərin soyumasından narahatdır

## **Arif Hacılı:** "Azərbaycanla ABŞ-ın münasibətlərinin bu şəkildə korlanması müxalifətin maraqlarına uyğun deyil"



**Bir neçə həftədir rəsmi qəzetlərdə, hakimiyyətə yaxın mətbu orqanlarda ABŞ-a qarşı sərt yazılar getməkdədir. İqtidar təmsilçiləri Vaşinqtonu, konkret olaraq ABŞ dövlət katibi Con Kerrini Azərbaycana təzyiq göstərməkdə, ölkəmizin daxilində qarışıqlıq yaratmaq istiqamətində layihələri dəstəkləməkdə suçlamaqdadırlar. Vəziyyət o həddə çatıb ki, artıq Azərbaycanın xarici işlər naziri səviyyəsində anti-Amerika bəyanatları verilir.**

Xarici işlər naziri Elmar Məmmədyarov bəyan edib ki, davam edən vəziyyət təəccüb və ciddi narahatlıq doğura bilər: "Təhlillər onu sübut edir ki, ABŞ-da olan müəyyən insanlar "insan hüquqlarının müdafiəsi"ni yalnız vasitə kimi istifadə edərək, məqsədyönlü şəkildə Azərbaycana qarşı əks kampaniya aparırlar. Göründüyü kimi, bu anti-Azərbaycan kampaniyası müxtəlif ictimai və media təzyiq vasitələri ilə yalnız Azərbaycanın beynəlxalq imicinə xələl gətirməklə məhdudlaşmır, eləcə də Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərir.

Ciddi narahatlığa səbəb sənədlərdə adıçəkilən demək olar ki, bütün QHT və digər təsisatların ABŞ-ın rəsmi strukturları ilə yaxından işləməsi və dövlət büdcəsi hesabına maliyyələşdirilmələridir. ABŞ erməni lobbisi ilə sıx əlaqələri olan bəzi fərdlər də bu prosesə cəlb olunublar".

Azərbaycan hakimiyyəti ilə ABŞ arasında belə bir soyuqluğun yaşanması Azərbaycan müxalifətinin xeyrinədirmi? ABŞ-la münasibətlərin gərginləşməsinin Qərbdən Azərbaycanda demokratik proseslərə dəstək verilməsinə gətirib çıxaracağı gözləniləndirmi, müxalifətin belə bir gözləntisi varmı?

**Bu suallara cavabında Müsavat Partiyasının başqanı Arif Hacılı bildirdi ki, Azərbaycanla Qərbin münasibətlərinin bu şəkildə korlanması nə Azərbaycan dövlətinin, nə hakimiyyətin, nə də müxalifətin maraqlarına uyğun deyil. Azərbaycan hakimiyyətinin Qərbə, əsasən də ABŞ-a qarşı son siyasəti Azərbaycan üçün heç də yaxşı perspektiv vəd etmir:** "Azərbaycan öz şərtlərini müstəqil olaraq bütün dünyaya diktə etmək imkanına malik olan ölkə deyil. Azərbaycanın iqtisadiyyatı əsasən neftdən və digər enerjidaşıyıcılarından asılıdır. Nəzərə alsaq ki, Azərbaycan Rusiya və İran kimi Azərbaycana rəğbət bəsləməyən ölkələrin sərhədində yaşayır, Azərbaycan nefti əsasən Xəzər dənizində istehsal olunur, Azərbaycan Qərbə qarşı, xüsusilə ABŞ-a qarşı belə mövqe tutmamalıdır. Azərbaycan hakimiyyətinin apardığı bu siyasət Azərbaycan üçün təhlükəlidir. Ona görə də bu siyasət dəyişdirilməli və Azərbaycanın maraqlarına uyğun olan avrointeqrasiya siyasəti aparılmalıdır. Hakimiyyətin indiki isterik davranışları hakimiyyətin özünün də əslində xeyrinə deyil. Çünki Azərbaycan hakimiyyəti Qərbə, ABŞ-a qarşı sərt mövqelər sərgilədikcə, Rusiyanın Azərbaycana qarşı tonu dəyişir. Konkret olaraq Rusiya prezidenti Vladimir Putin artıq keçmiş SSRİ ərazilərinin Rusiyaya aid olduğunu bəyan etməkdən belə çəkinmir, Azərbaycan və Ermənistana münasibətdə balans siyasətindən imtina edərək birmənalı şəkildə Ermənistanın yanında olduğunu nümayiş etdirir. Belə olan halda üstəlik Azərbaycan hakimiyyətinin ABŞ-a və Qərbə qarşı sərt mövqeyinin ortalığa qoyulması macəraçı bir siyasətdir. Həm hakimiyyətin özü, həm də bütövlükdə Azərbaycanın dövlətçiliyi üçün təhlükəli siyasətdir".

ABŞ-la münasibətlərin gərginləşməsinin Qərbdən Azərbaycanda demokratik proseslərə dəstək verilməsinə səbəb olub-olmayacağı barədə gözləntilərə gəlincə, Arif Hacılı qeyd etdi ki, demokratik qüvvələr də, ölkədə fəaliyyət göstərən siyasi partiyalar da cəmiyyətin tərkib hissəsidir. Əgər ümumi bir proses dövlətin, cəmiyyətin ziyanınadırsa, bu, cəmiyyətin daxilində olan hansısa konkret olaraq bir qurumun xeyirinə ola bilməz. Azərbaycanla Qərbin münasibətlərinin bu şəkildə korlanması nə Azərbaycan dövlətinin, nə Azərbaycan hakimiyyətinin, nə də Azərbaycan müxalifətinin maraqlarına uyğun deyil.

❑ **Etibar SEYİDAĞA**



# Ölkəmizi qaraltdılar

Zamin HACI
zaminhaci@mail.ru

**İsveç Olimpiya Komitəsinin sədri bizim Avropa Oyunları qayırmağımız haqda nəsə tənqidi sözlər deyibdir. Tapıb oxumağa həvəsim olmadı, belə başa düşdüm ki, Azərbaycanda repressiv rejimdən, insan haqlarının kütləvi pozulmasından, siyasi dustaqlardan danışıb. Yəni, velosipedi kəşf edibdir - o şeylər ki, biz hamımız qəşəng bilirik, boynumuzu əyib sakitcə oturmuşuq.**

Hər halda, sağ olsun, dünyada belə kişi adamlar çox olsa, yapistlərə çoxlu embarqolar qoyulsaydı indiki kimi ağını çıxarmağa cürət eləməzdilər. Bir növ, yiyəsizliyə düşüblər.

Amma Azərbaycan Milli Olimpiya Komitəsinin həmin isveçliyə cavabı yayılıb ki, bunu oxuyanda mən xeyli güldüm. Buyurun, gülməli yerlərindən birini siz də oxuyun: "Qeyd etmək istərdik ki, Azərbaycan hüquqları və demokratiya ilə bağlı standartlara əməl olunması haqda danışan İsveç dırnaqarası hüquq müdafiəçiləri unudurlar ki, 1986-cı ildə fevralın 28-də İsveçin paytaxtı Stokholm şəhərində İsveçin baş naziri Ulof Palmenin odlu silahdan açılan atəş nəticəsində öldürülməsi, 2013-cü ilin sentyabrın 11-də İsveçin xarici işlər naziri Anna Lindin qəddarcasına qətlə yetirilməsi, minlərlə etirazçının ölkədə son zamanlar məscidlərdə törədilən hücumlara qarşı İsveç parlamentinin qarşısında təşkil olunmuş etiraz aksiyaları və bu kimi onlarla problemi olan ölkəni təmsil edirlər. Onların insan hüquqlarının və demokratik rejimin müdafiəçisi qismində çıxış etməsi reallıqdan uzaqdır". Sitatın sonu.

Əlbəttə, İsveç insan inkişafı reytinqinə görə dünyanın ilk 10 dövlətindən biridir, Azərbaycan isə bu reytinqin quyruq hissəsində Somali, Efiopiya, Banqladeş kimilərinin yanında sürünür və indi belə faktlar sadalamaq, Azərbaycanı İsveçlə müqayisə eləmək debillik olardı. Biz də olardıq gülməli. Milli OK-umuzun tayı. O üzdən, belə idiot hərəkətlərdən vaz keçək və MOK-umuza dəstək verək. Məncə, onlar İsveç tarixindən başqa misallar da çəkib onları utandırmağa davam etsin. Örnək üçün, 13-cü əsrdə Aleksandr Nevski İsveç ordusunun ağzını-burnunu Neva çayı üzərində qanatmışdır! Halbuki Zakir müəllim Nevskini ortadan qatlayıb dizinin altına basardı!

Yeri gəlmişkən, MOK-umuz sanki keçmişə ekskursdan bir az utanıb və Anna Lind-in 2003-cü ildəki qətlini dartıb 2013-cü ilə gətiribdir. Əşşi, nöşün utanırsınız? Basın getsin. Xalqımız üçün guya nə fərqi vardır? Hər cür xarab, boyat yalanı da yeyirlər, minnətdarlıq edirlər.

Ta analiz eləmişik, bir az da Ulof Palme və Anna Lind-in qətl şəraitindən yazaq. Azərbaycan MOK onların nə cür öldürülməsinin detallarını da yazsa yəqin xəcalətdən özünü buraxardı.

Məsələ ondadır ki, Ulof Palmeni küçədə, cangüdənsiz-zadsız gəzdiyi vaxt vurublar, Anna Lind də həmçinin, supermarketdən təkbaşına çıxanda bıçaqlanıb. Mən bizim MOK-a məsləhət görərdim Artur Rasizadə və Elmar Məmmədyarovu yarımca saatlığa Bakı küçələrinə buraxsınlar, nəticəyə baxsınlar. Yoxsa Avropada baş nazirlər, krallar küçədə sadə insanlar kimi gəzirlər, velosiped sürürlər və elə sadə insanlar kimi də ölür, öldürülürlər, ta gedib bahalı klinikalarda gizlincə ölmürlər. Belə şeyləri hardan anlayasınız? Hər yoluq icra hakiminin də böyrünə bir batalyon cangüdən qoşub İsveçə sataşmaq yüngül xasiyyətdir.

Dünən başqa bir xarici qurum - "Sərhədsiz Reportyorlar" da hesabat yayıb, Azərbaycanı dünya söz azadlığı xəritəsində qara rəngə boyayıb. Bu, "media azadlığı ən az olan ölkələr" deməkdir. Qabaqlar biz adətən qırmızı ölkələr siyahısında olurduq - "media azadlığı az olan ölkələr"dən sayılırdıq. "Sərhədsiz reportyorlar"ın bu məşhur xəritəsi ilə bağlı mənim bir əhvalatım var.

O xəritənin biri evimizdədir. Bir dəfə 5 yaşlı oğlum bunu kitabların arasından tapıb sərmişdi yerə, diqqətlə baxırdı. Məni görəndə dedi: "Ata, bu qırmızı "dur" deməkdir. Qara yerlərdə isə işıq keçib".

Unikal izahat idi. 5 yaşlı uşaq qədər qanacağı olmayan bir rejimin əlində qalmışıq. Artıq bizim də işığımız keçdi. "Dur" deyən olmadığı üçün.

---



# "Qərb iqtidara deyir ki, demokratiyanın faizini qaldır..."

## Millət vəkili İqbal Ağazadə: "Siyasi partiyaları dialoq adı ilə mövqe dəyişməyə çağırmırlar"

**Azərbaycan önəmli bir mərhələyə qədəm qoyub. Hakimiyyət böyük maliyyə yatırdığı Avropa Oyunlarından qazanacağı dividentləri hesablamaqla yanaşı, noyabrda gözlənilən parlament seçkisinin hazırlıqlarına da başlayıb. Bu arada iqtidar mediasında anti-Qərb çıxışları genişlənib. Digər tərəfdən, iqtidar ictimai çəkisi o qədər də yüksək olmayan partiyalarla dialoqu davam etdirmək niyyətini açıqlayıb. "Yeni Müsavat"ın bugünkü ictimai-siyasi gündəm, ölkədə, eləcə də beynəlxalq aləmdə Azərbaycanla bağlı gedən proseslər haqqında suallarını Ümid Partiyasının sədri İqbal Ağazadə cavablandırır.**

***- İqbal bəy, son açıqlamanızda "dialoq məsələsi"nə görə "Azadlıq 2015" blokundakı partiyaları möhkəm iynələmisiz. Bizim üçün açıq qalan bir məsələ var. Qabaqlar görüş üçün bütün partiyalara müraciət olunurdu. Bu dəfə Ümid Partiyasına, ADP-yə, Müsavata müraciətlər yoxdur. Proses yalnız "Azadlıq 2015" bloku çərçivəsində gedir. İqtidarla siyasi partiyaların görüşü prosesində bizim qaçırdığımız yeni detalmı var?***

- Mən "Azadlıq 2015" blokunu iynələməmişəm, sadəcə, mövqeyimi ifadə etmişəm. Dialoq başlayanda da bizim siyasi partiyalara çağırışımız olmuşdu, demişdik ki, hər bir partiyanın dialoqa gedib mövqeyini bildirməsini müsbət qarşılayırıq. Siyasi partiyaları dialoq adı ilə mövqe dəyişməyə çağırmırlar ki? Biz də iştirak etdiyimiz bütün görüşlərdə mövqeyimizi açıq demişik. Məsələn, mən görüşdə seçki məsələsinin müzakirə olunmasının tərəfdarı deyildim. Çünki bu formatda seçki ilə bağlı obyektiv fikrə gəlmək, müzakirələr nəticəsində Seçki Məcəlləsini dəyişmək mümkün deyil. Milli Məclis yay tətilinə çıxır, ardınca olimpiada olacaq, avqust ayında seçki prosesi başlayır, yəni bütün bunları operativ həyata keçirmək nələrisə dəyişməyəcək. Dialoqa niyə bəzi partiyaları çağırıblar, bəzilərini çağırmayıblar məsələsi də hakimiyyətin problemidir.

***- Sizin bu formata münasibətiniz necədir?***

- Mən keçən dəfəki danışıqlarda formata etiraz etmişəm.

***- Bu etirazın nəticəsidirmi ki, siz növbəti danışıqlara dəvət edilməmisiz?***

- Bilmirəm. Mən formata ona görə etiraz edirdim ki, orada partiya statusuna cavab verməyən yetərincə partiyalar var. Mən kimlərinsə ictimai-siyasi nüfuzunun olmadığını demirəm, sadəcə, bu partiyaların arxasında baza olduqca zəifdir. Açıq deyək ki, onların çoxu konfranslar keçirməyi unudublar. Nəinki rayon şöbələrini yaratmaq bir yana, ali orqanlarının toplantısını keçirməyi unudublar.

***- Təklifiniz nədir?***

- Ədliyyə Nazirliyi araşdırsın ki, hansı partiyanın yerli qurumları var. Bilinməlidir ki, kimlərin təsiretmə imkanları yüksəkdir. Format bu araşdırmaların nəticələrinə uyğun müəyyən edilməlidir. Birinci görüşə iqtidaryönlüləri dəvət etmişdilər. Yaxşı ki, sonradan onları çıxardılar... Orda elə partiyalar var ki, hələ möhür davası eləyirlər. Birinin arvadı möhürü götürüb evinə aparıb, o birisi o möhürü ondan almaq istəyir... Bu şəxslərlə ölkənin problemlərini həll etmək mümkün deyil.

***- İqbal bəy, məzmun özü də maraqlıdır. Təklif olunur ki, Avropa Oyunları ilə bağlı müzakirələr aparılsın. Nə deyirsiz bu məsələyə?***

- Bizə belə təklif gəlməyib.

***- Təklif olsa, gedəcəksizmi?***

- Mütləq gedəcəyik.

***- Bu, Azərbaycan hakimiyyəti üçün çox həssas bir mövzudur. Sizin mövqeyiniz maraqlıdır.***

- Mən olimpiadanı birmənalı dəstəkləyirəm. Dünən gənclərlə görüşdüm. Onlara primitiv bir misal çəkdim. Dedim, çoxlarınız kənd yerində böyümüsüz. Cəmiyyətin və ailənin inkişafı üçün şəhərdən çox qonağı gələn ailədəki inkişafla heç bir qonağı gəlməyən ailənin inkişafı arasında fərqləri görmüsünüz.



**"İndiki dünyada Birləşmiş Ştatlarla qarşı-qarşıya gələ biləcək yeganə güc Çindir. Bir də Azərbaycan"**

***- Çox primitiv müqayisə deyilmi?***

- Primitiv olduğunu başlanğıcda özüm qeyd etdim. Biz avropalıları ölkəmizə daha çox dəvət etməklə özümüz avropalıların bir hissəsi olduğumuzu dərk edəcəyik, digər tərəfdən də avropalılara qəbul etdirəcəyik ki, biz yalnız Şərqin deyil, Avropanın da bir parçasıyıq. Gəlin, məsələyə başqa açıdan da baxaq. Bundan yaxşı informasiya və mesaj vermək imkanımız harda ola biləcək ki? Hansı ölkələrin mətbuatı, elə bütövlükdə götürsək, bir qitə, olimpiada olmasa, Azərbaycanla bu qədər maraqlanacaq? Hər kəs öz bildiyini desin - iqtidar tərif etsin, biz problemlərdən danışaq. Əsas odur ki, daha çox təmas qurulsun.

***- Ancaq bir ajiotaj da var. Səbəb nədir? Niyə Qərbin bir sıra dairələri hakimiyyəti qızışdıracaq səviyyədə rəsmi Bakının üzərinə gəlir? Bunlar gerçəkdən də erməni lobbisi və Azərbaycanı gözü götürməyən qüvvələrdirmi, yoxsa başqa bir məsələ var?***

- Yox. Belə deyil. Yadınızdadırsa, mən sizə müsahibələrimin birində demişdim ki, Azərbaycan Avropanın, Qərbin yanındadır. Rusiya zəiflədikcə, Qərb demokratikləşmənin faizini yüksəltmək tələbləri ilə Azərbaycanın üzərinə gələcək. Qərb artıq deyir ki, biz Rusiyanı zərərsizləşdirdik, sizin Rusiya kimi bir təhlükəniz yoxdur, demokratiyanın faizini qaldırın. Rusiya Ukrayna hadisələrindən sonra artıq qonşu ölkələrlə münasibətdə daha az aqressivdir. Aqressivlik tamam yoxa çıxmayıb, bəyanatlar davam edir, hərəkətlər isə azalıb. Bir il, yarım il öncə Avrasiya Birliyi ilə bağlı proqnozlar yadınızdadırmı? 2015-ci ilin may ayında artıq Avrasiya Birliyi Sovetlər Birliyinin yeniləşmiş modeli kimi tam şəkildə fəaliyyətə başlamalı idi. Varmı ortada belə bir birlik? Yoxdur. Buna görə biz hamımız Ukraynaya minnətdar olmalıyıq. Rusiyanın bu zəifləmə məqamında Qərb Azərbaycana deyir, demokratikləşmənin faizini qaldıracaqsız, daha Rusiya təhdidi əvvəlki deyil; bizə deməyin ki, siz bizi bir tərəfdən sıxırsız, Kreml bir tərəfdən, İran da bir tərəfdən; əgər kiçik də olsa, demokratik açılım etsək, kataklizmlər yaranar. Bəzən deyirlər ki, Azərbaycan Avropa ilə Qərblə çəkişir. Çəkişmə yoxdur, söhbət bütünlükdə demokratikləşmədən gedir. Artıq gündəlikdə yalnız insan haqları məsələsi deyil. Söhbət yalnız insan haqlarından getsəydi, çox rahatca bazarlığa çıxardılar, 3-5 siyasi məhbusu buraxardılar, minnətdarlıq alardılar.

**"Qərb artıq deyir ki, biz Rusiyanı zərərsizləşdirdik, sizin Rusiya kimi bir təhlükəniz yoxdur, demokratiyanın faizini qaldırın"**

**"Orda partiyalar var ki, hələ möhür davası eləyir. Birinin arvadı möhürü götürüb evinə aparıb, o birisi o möhürü ondan almaq istəyir..."**

***- Demokratiyanın təməlində insan haqları dayanmırmı?***

- Bu təməl deyil, görünən tərəfdir.

***- Bizi təəccübləndirən də odur ki, Azərbaycan hakimiyyəti adətən bu cür məsələlərdə əfv fərmanları ilə manevr edib vəziyyətdən çıxır. Ancaq indi prezident səviyyəsində bir bəyan var ki, bizi sıxırlar. Hətta Prezident Administrasiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov deyir ki, elə dəhşətli şəkildə sıxırlar ki... ancaq açıqlaya bilmirik. Nə baş verir?***

- Mən Novruz Məmmədovun mesajlarını təkcə Qərbə ünvanlanmış mesajlar saymıram. Novruz Məmmədov bu sözlərin arxasında çox rahatca manevr edə bilər, hətta xarici siyasət idarəsi də edər, deyə bilər ki, biz Rusiyanı nəzərdə tuturduq, bizə dəhşətli basqılar var. Ancaq hədəf göstərilmir. Dövlət hələlik bununla bağlı heç bir yerdə rəsmi mövqe qoymayıb. Dövlətə yaxın olan qurumlar, strukturlar, media mövqe bildirir. Bunu əsaslandırmağa yerlər də var. Məsələn, Con Kerri ilə bağlı. Con Kerrinin ermənilərlə sıx münasibəti göz önündədir - bunu hər kəs bilir. Azərbaycan cəmiyyəti də özü üçün həssas bir məsələdə Con Kerriyə basqı göstərir. Hədəf ABŞ hökuməti deyil, fərdin Ermənistan-Azərbaycan münaqişəsində tutduğu tərəfli mövqe ona qarşı iradlara səbəb olub. Azərbaycan hökuməti xarici siyasətdə bütün manevr imkanlarını saxlayır. Hətta mediada hansısa analitik yazılar ortaya çıxırsa belə, Azərbaycan xarici siyasət idarəsi çox rahatca deyə bilər ki, demokratiyadadır, müəllif müstəqil mövqe bildirib. Qərbin Azərbaycanda demokratikləşmə tələbləri isə konkretdir.

***- Söhbət necə bir açılımdan gedir?***

- Bu açılım insan haqlarına da, seçkilərə də, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə də, siyasi institutlara da aiddir.

**"Ən dəhşətlisi də odur ki, bütün bu şayiələrin hamısının ictimai rəyə ötürülməsi müxalifətin rəhbərliyindən və funksionerlərindən keçir"**

***- Saydığınız spektrlərin hamısı ölü vəziyyətindədir.***

- Elə Qərb də istəyir ki, bu ölü nöqtədən irəli gedilsin. Bunların üzərindən də Azərbaycan hökumətinə geniş demokratikləşmənin vacibliyi mesajları göndərilir. Hakimiyyət də bundan narahatdır əslində. Əslində Azərbaycanda demokratikləşmə prosesi başlayıb.

***- Bu tələblərin yerinə yetirilməsi üçün Azərbaycana təsir mexanizmləri nələr ola bilər?***

- Mexanizmlər çoxdur. Azərbaycanın siyasi, iqtisadi tərəfdaşları nə Şərqdə, nə də postsovet məkanında deyil, birmənalı olaraq Qərbdədir. Qərb Azərbaycanın daxilini çox yaxşı bilir. Bugünlərdə çıxışlarımdan birində demişdim ki, Azərbaycan insanı iqtidardan inqilab edə biləcək qədər narazı deyil.

***- Arxasını da demişdiz. "Azərbaycan insanı hakimiyyətdən seçkidə ona səs verməyəcək qədər narazıdır, seçkilərə hazırlaşaq"... Bu qədərmi seçkiyə önəm verirsiniz?***

- Əlbəttə ki...

***- Bu, Azərbaycan insanı üçün qəribədir amma...***

- Hakimiyyət bu mexanizmi ömrü boyu ustalıqla işlədib. Diqqət edin, qarşıdan 2015-ci ilin parlament seçkisi gəlir. Bütün televiziyalarda xəbərlər yayılır ki, bizdə inqilab hazırlayırlar, rəngli inqilablar üçün planlar cızılır. O şey ki, mümkün deyil, o şey ki olmayacaq, Azərbaycan seçicisinin bütün diqqətini oraya yönəldirlər. Azərbaycan seçicisi də seçkini, filanı, hər şeyi buraxır. Ən dəhşətlisi də odur ki, bütün bu şayiələrin hamısının ictimai rəyə ötürülməsi müxalifətin rəhbərliyindən və funksionerlərindən keçir. Onlar bunu həzm-rəbedən keçirib, bu informasiyaları ictimaiyyətə sırıyırlar. Belə təəssürat yaradılır ki, seçkidə heç nə dəyişmir. Bu gün sosial şəbəkədə seçki ilə bağlı bir şərh yazın və reaksiyalara baxın. O şərhin altından nə qədər insan sizə sual verəcək ki, siz seçki prosesinə inanırsız? Bəli, hakimiyyət istəyir ki, seçkiyə yetərincə az insan gəlsin, xalq prosesdən kənarda qalsın. Seçkidə bir iqtidar, bir müxalifət qrupu qalsın. Qrupların mübarizəsində iqtidar hər zaman güclüdür. Xalq olan yerdə isə yalnız xalq güclüdür. Ona görə də əgər iqtidar gerçəkdən seçki prosesinin olmasını istəsə, axşama qədər televiziyadan hamını seçkiyə səsləyər.

**"Cəmil Həsənli bütün seçki prosesi boyu var gücü ilə çalışdı ki, xalq seçki prosesində iştirak etməsin"**

***- Müxalifətin də vəzifəsi bu siyasəti ifşa edib xalqı seçkiyə çağırmaq deyilmi?***

- Bəli. Ancaq özünü qatı müxalifətçi adlandıran kəsim biz insanları seçkiyə çağıranlara da deyir ki, siz seçkiyə inanırsız, yəqin yenidən deputat olmaq, siyahıya düşmək istəyirsiz? Yaxşı, onda niyə mübarizə aparırsız? İqtidar iki şayiəni klassik şəkildə ictimaiyyətə yeridib. Birincisi, seçicini inandırıblar ki, sənin səsin heç nəyi həll etmir, ikincisi, seçilənlərin hamısı mənimlə razılaşdırılmalıdır. Bu gün istənilən seçici ilə ilk təmasda verilən birinci klassik sual "yuxarı ilə razılaşmısız"dır.

***- Bu həm də reallıqdır axı. Azərbaycanda illərdir seçki yox, təyinat var.***

- Reallıq deyil. Reallıq odur ki, Azərbaycan iqtidarı seçicini seçkiyə gəlməyə qoymur. Bunun alt yapısını hazırlayıb, qalan məsələləri də özü təşkil edir. Adlarını çəkməyəcəm, Azərbaycan müxalifətinin partiya sədrləri və müavinləri, funksionerləri səviyyəsində ən çox səs toplayan şəxs - Rauf Arifoğlu istisna olmaqla, Rauf bəy 3 min səs yığmışdı - 2200 səsi keçə bilmir. Əhalinin seçkiyə marağı son dərəcə azdır. "125-lər" çərçivəsində biz yalnız 70 namizəd müəyyənləşdirə bilmişik. Azərbaycan müxalifətinin ayrı-ayrı qruplarına baxın. Söhbət namizəd olacaq şəxslərdən getmir. 125 yox, lap 325 namizədi yazaram da, verərəm də. Mübarizə apara biləcək 125 adamı ortaya çıxarmaq üçün uzun zaman lazımdır.

***- Bütün dairələrdə adamınız varmı?***

- Cəmi 70 namizədimiz var.

***- Ancaq adını "125-lər" qoymusuz...***

- Qoymuşuq, ancaq bu istəyə çata bilməmişik. Reallıq budur.

***- Bəlkə elə hamınız yığışıb bu müxalifət işini buraxasız?***

- Mən müxalifət işi ilə məşğul deyiləm.

***- Hakimiyyət bu qədər güclüdürsə, müxalifətin çevrəsi bu qədər zəifdirsə, namizəd olacaq adamlar tapmaq mümkün olmursa, bəlkə ümumi bir toplantı keçirib özünüzü buraxasız?***

- İmkan verirsizmi? 2013-cü il seçkisində biz Milli Şura projesinin harada olduğunu dedik. Siz də sağ olun, müəyyən mənada prosesin içərisində olduz, getdiz o namizədə dəstək verdiz ki, onun bütün oyunu hakimiyyətin xeyrinə quraşdırılmışdı.

***- Siz deyirsiz ki, Cəmil Həsənlinin namizədliyi hakimiyyətin xeyrinə idi?***

- Bəli. Azərbaycan seçicisinin seçki prosesində iştirak etməsini iqtidar istəmir - bunu bayaq dəfələrlə dedik. Cəmil Həsənli bütün seçki prosesi boyu var gücü ilə çalışdı ki, xalq seçki prosesində iştirak etməsin.

***- Etməsin?***

- Bəli, etməsin. Cəmil Həsənli deyirdi ki, bu hökumət 48 milyard pul oğurlayıb... Bizdə xalq hər zaman düşünür ki, kimin pulu varsa, o qalibdir. İnsanlar düşünür ki, bu qədər oğurlayıbsa, mən buna nə edə biləcəm? Cəmil Həsənli ardınca dedi ki, bu hakimiyyət gənclərin, dindarların cibinə narkotik atıb onları tutur, şərləyir, balalarımıza işgəncə verir. Xalq da düşündü ki, mənim balamı da zindana atacaq, prosesin dalınca getməyim. Sonra bildirdi ki, hakimiyyət xaricdə nüfuzlu şəxsləri "alır", kürü diplomatiyası ilə Avropa təsisatlarını zəbt edir. Xalq düşündü ki, iqtidar hamını ala bilirsə, demək, bu dəfə də alacaq... Bu halda, bu təqdimatlardan sonra seçici nəyə baxıb prosesə qatılmalıdır?

***- Sizcə, seçkiöncəsi çıxışlarda həqiqətləri gizlətmək gərək idi?***

*(ardı var)*

❑ Qələmə aldı Aygün MURADXANLI

**"Söhbət yalnız insan haqlarından getsəydi, çox rahatca bazarlığa çıxardılar, 3-5 siyasi məhbusu buraxardılar, minnətdarlıq alardılar"**





**"İqtidar iki şayiəni ictimaiyyətə yeridib bilib. Birincisi, seçicini inandırıblar ki, sənin səsin heç nəyi həll etmir; ikincisi, seçilənlərin hamısı mənimlə razılaşdırılmalıdır"**

---

# Demokratiya nəzəriyyə kimi tükənibmi?



Hüseynbala SƏLİMOV

**Həyat elədir ki, daim yeni-yeni çağırışlar edir. Amma bəzən dayanmaq və keçilən yola bir daha baxmaq zərurəti də yaranır... Bəli, totalitar rejimdən, totalitar ideologiyanın hökm sürdüyü siyasi sistemdən çıxmış cəmiyyətin yenidən "milli ideologiya"ya müraciət etməsi həm məntiqli və gözlənilən, həm də təəccüblü idi.**

Ona görə məntiqli və gözlənilən idi ki, cəmiyyət belə görmüşdü, belə oxumuşdu, belə eşitmişdi və ən başlıcası isə, belə yaşamışdı. Çoxu üçün SSRİ adlı dövlətdən milli dövlətə keçid sadəcə, ölçülərin kiçilməsi, sərhədlərin daralması demək idi. Elə bu səbəbdən də insanlar ilk dövrlərdə SSRİ-nin kiçik "surət"lərini yaratmağa cəhd edirdilər...

Ona görə təəccüblü idi ki, bu, artıq bir dəfə olmuşdu. Bir hakim ideologiyaya əsaslanan siyasi sistem özünü doğrultmamışdı...

Amma insanlar bunun fərqində deyildi. "Milli ideya" və "milli ideologiya" mövzuları o vaxtlar nəinki Rusiyada, o cümlədən də Azərbaycanda müəlliflər üçün az qala "kart-blanş" rolunu oynayırdı - onlar bu mövzudakı yazıları ilə cəmiyyətə, ictimai fikrə çıxmaq istəyirdilər...

İndi həmin illərin təfsilatını xatırlamağa lüzum yoxdur, həm də ona görə ki, Azərbaycanda bu proses səngisə də, Rusiyada hələ də davam edir... Amma bu proseslərin gedişində maraqlı detallar da olmuşdu ki, onları unutmaq elə də asan deyil, aralarında hətta gülməliləri də vardı...

Bir hadisə 1992-ci ildə Azərbaycanda olmuşdu. AXC-nin qurultayı gedirdi və çıxış edən təşkilat funksionerlərindən biri dedi ki, bizə milli ideologiya lazımdır, biz təbliğatı gücləndirməliyik və s. və i...

Amma qurultaya sədrlik edən Ə.Elçibəy o adamın çıxışına maraqlı bir replika ilə cavab verdi. Dedi ki, bəy, təbliğata xərcləyəcəyimiz pulları millətin problemlərinin həllinə yönəltsək, daha yaxşı olmazmı?..

Yadımdadır, o vaxt həmin funksioner tribunanı çox pərt tərk etdi. Ona görə ki, "cəbhə"çilərin maraqlı xüsusiyyəti vardı: əgər Ə.Elçibəy desəydi ki, timsahlar uçur, bu, qeyd-şərtsiz qəbul olunacaqdı ki, timsahlar elə həqiqətən də uçur... Soruşsaydın ki, bəs biz niyə onların uçmağını görmürük? Cavab verəcəkdilər ki, timsahlar yəqin, gecələr uçur, ona gərə də biz bunu görmürük...

Qərəz, Ə.Elçibəyin "cəbhə"çilər arasında nüfuzu o qədər böyük idi ki, əgər o, nəsə deyirdisə, deməli, düz deyirdi...

Amma etiraf edim ki, onun qurultaydakı o replikası liberal düşüncəlilərin lap ürəyindən olmuşdu...

Bunları niyə xatırladıq? O gün bir rusiyalı müəllifin yenə də milli ideologiya ilə bağlı yazısı gözümüzə sataşdı. Açığı, bir tərəfdən bu, bizə maraqlı göründü...

Ona görə ki, tamam biganəlikdən, etinasızlıqdansa heç olmasa, belə məsələləri müzakirə etmək daha maraqlı görünür...

Həm də burada bir məqam var. Demokratik dövlətdə milli ideologiya olmasa da, milli təhlükəsizlik konsepsiyası, hərbi doktrina və xarici siyasət konsepsiyası olur. Bu sənədləri isə "Biz kimik və nə istəyirik?" sualına cavab vermədən hazırlamaq mümkün deyil. Bəli, prinsipcə, onsuz da keçinmək olar, amma bu, sırf deklarativ, heç nəyə yaramayan bir sənəd olacaq...

Dünyada dövlətlərin və ölkələrin missiyası ilə bağlı ziddiyyətli mövqelər var.

Məsələn, alman siyasətçiləri bu sözü yaxına belə buraxmaq istəmirlər. Bəlkə də ona görə ki, onlar da öz totalitar keçmişlərindən qorxurlar...

Amma tutaq ki, Şərqdə demokratik və dünyəvi dövlətə, plüralist və multikultural cəmiyyətə can atmağın özü niyə missiya, özü də mütərəqqi bir missiya kimi qəbul edilməsin?

Yəni, demək istəyirik ki, politologiya, sosiologiya, ümumiyyətlə, siyasi və ictimai elmlər riyaziyyat deyil ki, hər şey dəqiq olsun. Burada bir fikri, təklifi təkzib edən arqumentlər də düşünmək mümkündür, onu təsdiqləyən arqumentlər də...

Bəzən görürsən ki, bir fikrə, hədəfə köklənmək millətin konsolidasiyasını artırır, onu ictimai-siyasi proseslərə daha fəal qoşulmağa təhrik edir...

Demokratiya özü böyük ideyadır. Daim demokratiya sərhədlərində qalmaq və həyatı bu sərhədlər çərçivəsində dərk etmək fərddən və eləcə də cəmiyyətdən çox böyük intellektual səylər tələb edir...

Ona görə də, o kəslər ki, demokratiyanın artıq bir ideya kimi tamam işləndiyini zənn edirlər, onlar çox yanılırlar... Azadlığın sərhədləri həmişə böyük mübahisələr yaradacaq, onun genişlənməsi həmişə kimlərisə qorxudacaq, kimlərisə ehtiyatlandıracaq...

Bu isə o deməkdir ki, bu yol hələ bitməyib, irəlidə o qədər problem var ki...

YENİ MÜSAVAT
N 97 (6125) 6 may 2015

**17 yaşlı məktəbli Aytac Babayevanın qətlə yetirilməsindən bir həftə ötsə də, hadisə mətbuatın gündəmindən düşmür. Ölkə ictimaiyyəti Aytacın öldürülməsinə etiraz olaraq sosial şəbəkələrdə qadın haqlarını müdafiə edən statuslar paylaşır, gənc qızın yaxınlarına dəstək kampaniyası həyata keçirirlər. Gəncin həyatının ən gözəl çağında amansızlıqla öldürülməsindən təsirlənən həmyaşıdları da məsələyə səssiz qalmır, müxtəlif lokal aksiyalar keçirirlər.**



# Qətlə yetirilən gənc qızın acı hekayəti "Yeni Müsavat"da

## Atası Aytacın nakam arzularından danışır, anası qatilə ömürlük həbs istəyir; "Hər iki saatdan əlaqə saxlayıb harada olduğu haqda məlumat verirdi, evdən icazəsiz heç yerə getməzdi..."

Təbii ki, Aytacın qətli Türkiyədə Özgəcan Aslan cinayətində olduğu qədər əks-səda doğurmasa da qadınlara qarşı törədilən cinayətlərə etiraz üçün bir siqnal oldu. Lakin sosial şəbəkələrdə mərhumun onu qətlə yetirənlə foto və videolarını yayıb gənc qızı məktəbli yaşında sevgi yaşadığı üçün ittiham edənlər də tapıldı. Hətta bir çoxları irəli gedərək bu qətli "namus-qeyrət" məsələsi kimi şişirdib qatilə haqq qazandırmağa çalışdılar.

Məsələdə bəzi xəbər saytlarının da rolu az olmadı. Gənc qızın sevgilisinin ad günündə çəkilmiş videolarının paylaşılması da etiraza səbəb oldu. Bütün bu baş verənlərdən dolayı "Yeni Müsavat" qəzeti olaraq Aytac Babayevanın ailəsinə baş çəkməyi özümüzə borc bildik.

Mərhumun ailəsi Xətai rayonunda "Upede" adlanan qəsəbədə çox da dəbdəbəli olmayan sadə bir evdə yaşayır. Biz ünvana çatanda bu ailəyə dəstək üçün gələn kimsə ilə rastlaşmadıq. Sosial şəbəkələrdə nə qədər müzakirələr getsə də, ailə bu böyük dərdlə baş-başa qalıb. Yas evində yalnız yaxın qohumlar var idi. Mətbuatda yazılanlardan, paylaşılan foto və videolardan qəzəblənən ailə üzvləri bizi də o qədər xoş qarşılamadılar. Jurnalistlərdən qəzəbli olduqlarını deyib foto-videoçəkilişə icazə vermədilər.

**Aytacın atası Nazim Babayev başsağlığı diləklərimizi qəbul etdikdən sonra birbaşa etiraza başladı:** "Mənim qızım haqqında hər kəs ağzına gələni yazır. Bizim acımız, kədərimiz bizə bəs edir. Bir də yalan-yanlış materiallarla niyə bizə əzab verirlər? Mənim qızım oxuyan, ağıllı qız idi. Hər gün hazırlıqlara gedib gəlirdi. Tibb Universitetinə daxil olmağı arzulayırdı. Sonuncu sınaq imtahanından 580 bal toplamışdı, yenə də nəticəsindən razı deyildi. O, hər iki saatdan bir mənimlə əlaqə saxlayıb harada olduğu haqda məlumat verirdi, evdən icazəsiz heç yerə getməzdi. İndi biz nə deyə bilərik. Yalnız cinayətkarın layiq olduğu cəzanı almasını istəyirik. Qızımın qanı yerdə qalmamalıdır. Biz hamımız şok vəziyyətindəyik. Aytacın yoxluğuna inana bilmirik. Qoy bizə bunu yaşadanlar da cəzasını alsın".

**Mərhumun bacısı Ayşən Babayeva da bacısı haqqında yazılan şərhlərə etirazını bildirdi:** "Bizim üçün o yazılan ittihamların heç bir mənası yoxdur. Bacımın necə bir qız olduğunu bilirdik. Heç kim onun namusu haqqında artıq-əksik danışa bilməz. O şərhləri yazanlara yalnız bircə sözüm var, Aytacın taleyini yaşasınlar, bacılarının, qızlarının başına gəlsin, o zaman bizim acımızı anlaya bilərlər. O fotoları mətbuata çıxaranlar oğlanın *(təqsirləndirilən şəxsin - N. L.)* adamlarıdır. Bununla nəyə nail olmağa çalışırlar, bilmirəm".







**Övladını itirmiş ananı dinləmək isə daha çətin idi. O danışmır, fəryad edirdi:** "Buraya niyə gəlmisiniz? Mənim qızımı öldürüblər, mən nə danışmalıyam? Qatilə ömürlük həbs cəzası tələb edirəm, məgər bunu verəcəklər? Yox, verməyəcəklər, bir neçə ildən sonra qızımın qatili azadlıqda olacaq, mənim balam isə qara torpaqda. Gedin polisdən müsahibə alın, məhkəmədən müsahibə alın, qatilə ömürlük həbs verəcəklərmi?"

Burada artıq deyiləcək söz yox idi... Ailəni kədəri ilə baş-başa qoyub ayrılırıq. Bu zaman ailə üzvlərinin qızları haqqında yalan yazan mətbuata qarşı bütün narazılıq və nifrətinə də tuş gəldik....

***

**Ananın verdiyi sualı isə hüquqşünas Müzəffər Baxış cavablandırdı. Qətldə təqsirləndirilən şəxsə ömürlük həbs cəzası verilə bilərmi? Hüquqşünas Müzəffər Baxış bildirdi ki, bu suala konkret cavab vermək mümkün olmasa da qanunvericilikdə belə hal nəzərdə tutulub:** "Mən konkret deyə bilmərəm ki, bu hadisəni araşdıran istintaq orqanı həmin hadisəni törədən şəxsin əməlini necə tövsif edib. Amma valideynlərin müsahibəsini oxumuşam və onların dedikləri həqiqətdirsə, mən ehtimal edirəm ki, cinayəti törədən şəxsin əməli Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.4-cü maddəsi ilə "xüsusi amansızlıqla adam öldürmə" kimi tövsif edilsin. Şəxsin əməli bu maddə ilə tövsif olunarsa, onda belə halda həmin şəxs törətdiyi əmələ görə 14 ildən 20 ilə qədər azadlıqdan məhrumetmə cəzası və ya ömürlük azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırıla bilər. Ancaq bir bunu dəqiq deyə bilərəm ki, məhkəmə həmin şəxsə ömürlük həbs cəzası verə bilər. Bu, məhkəmənin səlahiyyətinə aid olan məsələdir. Şəxsin əməlində cəzanın yüngülləşdirici halları da ola bilər. Cinayəti törətdikdən sonra könüllü təslim olubsa, bu yüngülləşdirici hal kimi nəzərə alına bilər. Cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, şəxsin həbsinin onun ailəsinin həyatına təsiri və sair kimi hallar nəzərə alınır.

Bu hadisə insanda həmin şəxsə qarşı mənfi münasibət yaradır. Gənc bir qızı sadəcə onun sevgisinə cavab vermədiyi üçün həyatdan məhrum etmək böyük bir azğınlıqdır. Bu insan cəmiyyət üçün nə qədər təhlükəlidir ki, sevgisinə yox deyən adamı öldürə bilər. Bütün bunları məhkəmə nəzərə almalıdır. Əgər onun əməli Cinayət Məcəlləsinin 120.2.4-cü maddəsi ilə tövsif olunsa, qanun imkan verir ki, ona ömürlük həbs cəzası verilsin".

**Hüquqşünasın sözlərinə görə, cəza təyin olunarkən təqsirləndirilən şəxsin psixoloji durumu da nəzərə alınacaq:** "Başqa bir məsələ də odur ki, hər bir halda bu qəbildən olan cinayətlərə görə istintaq tərəfindən onun həmin cinayəti anlaqlı və ya anlaqsız vəziyyətdə törətməsi ilə bağlı psixiatrik ekspertiza təyin olunacaq. Onun əməlinə hüquqi qiymət verilməsi üçün bu ekspertizanın rəyi də önəmlidir. Əgər həmin şəxs bu əməli törədərkən anlaqsız vəziyyətdə olubsa, xroniki psixi vəziyyətində problem varsa, kəmağıllıq və sair psixi xəstəlik nəticəsində öz əməlini dərk etmirsə, onda onu cinayət məsuliyyətinə cəlb etməyəcəklər. Buna məhkəmə tibbi ekspertizası qərar verəcək ki, şəxs cinayəti törədən zaman anlaqlı olub, yoxsa anlaqsız vəziyyətdə olub. Anlaqsız vəziyyətdə olubsa, o, cinayət məsuliyyətinə cəlb olunmayacaq, məhkəmə onu məcburi müalicəyə göndərəcək".







Əlavə edək ki, qətli törətməkdə təqsirləndirilən şəxs Gürcüstan vətəndaşı, 1995-ci il təvəllüdlü İzzət Natiq oğlu Hüseynovdur. Onun Aytac Babayeva ilə sevgili olduğu mətbuatda yayılan foto və videolardan da aydın görünür. Qətlin dəqiq səbəbi istintaq araşdırmalarından sonra məlum olacaq. İ. Həsənovun sözlərinə görə, qızı məhz ona "yox" dediyinə görə bıçaqlayıb. Qətl xüsusi amansızlıqla törədilib, Aytaca 9 bıçaq zərbəsi vurulub, üzü parçalanmış və tanınmayacaq halda olub.

**Mövzunu diqqətdə saxlayacağıq.**

**Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 97 (6125) 6 may 2015

# Hərb, yoxsa sülh yolu: tanınmış qadınlar danışır...

**Son vaxtlar işğal altında olan torpaqlarımızın müharibə yolu ilə azad edilməsi haqda bəyanatlar intensivləşib. Ümumiyyətlə, müharibənin qaçılmaz olduğunu düşünən xeyli ictimai-siyasi xadim var. Ancaq müharibə deyərkən göz önündə ölüm, faciələr gəldiyi üçün bunun əleyhinə olanlar da az deyil. Maraqlıdır, Azərbaycanın ictimai fəal xanımları, anaları müharibənin tərəfdarıdırmı?**



**Novella Cəfəroğlu:** “Bir ana kimi müharibənin tərəfdarı deyiləm, ancaq...”



**Vəfa Cümşüdlü:** “Vətən, torpaq övladdan da irəlidir”



**Almaz Əliqızı:** “Torpaqları yalnız qan tökməklə geri almaq mümkündür”

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** bir ana kimi müharibənin tərəfdarı olmadığını dedi: “Sözsüz ki, torpaqlarımız nəyin bahasına olursa-olsun alınmalıdır. Amma mən bir ana, bir qadın kimi müharibəni istəməyənlər sırasındayam. Ən axır məqamda, yəni danışıqların heç bir nəticə verməyəcəyi təqdirdə müharibə etməkdən başqa yol qalmır. Mən Qarabağın danışıqlarla geri alınmasını istəyərdim, müharibə ilə yox. Nə qədər cavan övladlarımız ölüb, cavan qızlar ərsiz, uşaqlar yetim qalıb. İstəmərəm Azərbaycan yenə o faciəni yaşasın”.

**N.Cəfəroğlu arxivləri açaraq erməni vəhşiliklərini bütün dünyaya göstərməyin vacib olduğunu bildirdi:** “Azərbaycan ermənilərin əlindən 1905, 1915, 1918-ci illəri yaşayıb. Biz həmişə ermənilərin əlindən zülm çəkmişik. Danışıqlara gəlincə, yalnızca Qarabağı götürməməliyik. Hesab edirəm ki, bunlar "genosid" deyəndə biz 1905, 1915-ci il qırğınlarının, Xocalının şəkillərini götürüb bütün dünyaya göstərməliyik ki, bu vəhşiliyi ermənilər Azərbaycana qarşı ediblər. Elə şəkillər var ki, orada İçərişəhərdə, Qala qapısının yanında üst-üstə uşaq, qadın, kişi öldürülüb və yığılıb. Lalayan və Andranik də durub onların başında şəkil çəkdiriblər. Bu şəkillər arxivlərdə var. Mən bilirəm ki, Andranik Naxçıvanda neçə kəndi yandırıb, insanları öldürüb. Onları da arxivlərdən çıxartmalıyıq. Sonuncu olaraq da Xocalını. Nə vaxtsa da müharibə etmək istəsək, qoy dünya başa düşsün ki, biz niyə bunu edirik. Amma yenə də deyim ki, bir qadın kimi müharibənin tərəfdarı deyiləm".

**Müsavat Partiyasının Divan üzvü Vəfa Cümşüdlü vətənin övladdan da irəli olduğunu bildirdi:** “Müharibə deyəndə insanın gözü önünə ilk olaraq ölüm, faciə gəlir. Buna görə də heç kim müharibəni arzulamaz. Amma tarixə nəzər salsaq görərik ki, bizim heç kimin torpaqlarında gözümüz olmayıb. Elə bir məkanda yerləşmişik ki, təəssüflər olsun, qonşularımız həmişə bizə ərazi iddiasında olub. Qarabağ döyüşlərində bizim nə qədər vətən övladlarımız şəhid olub. 1993-cü ildə atəşkəsin elan olunması ilə guya bu problem həll olunacaqdı. Amma təəssüflər olsun ki, bu günə qədər bizim itkilərimiz müharibə dövründə olan itkilərimizdən qat-qat çoxdur. Şəhidlər Xiyabanına gedib araşdırma aparsaq görərik ki, 1993-cü ilə qədər olan şəhidlərimizlə 1993-cü ildən sonra şəhid olanlarımızın arasında böyük fərq görəcəyik. Bir ana kimi mən də istəmərəm ki, hər hansısa ana övladını itirsin. Amma vətən, torpaq övladdan da irəlidir. Ona görə də hesab edirəm ki, torpaqlarımız hansı yolla olur-olsun azad olunmalıdır”.

**V.Cümşüdlü düzgün siyasət nəticəsində torpaqların sülh yolu ilə də alına biləcəyini dedi:** “Sözsüz ki, düzgün siyasət aparılsa, Azərbaycanda demokratiya, insan haqları bərpa olunsa, biz sülh yolu ilə də Qarabağın işğal altından azad edilməsinə nail olarıq. Əgər bu yolla torpaqlarımız azad olunmasa, hökmən müharibə yolu ilə almalıyıq. Burada kimliyindən asılı olmayaraq hər kəs torpaqların alınmasında iştirak etməlidir”.

**Müsavat Partiyasının sabiq Divan üzvü, professor Almaz Əliqızı isə bildirdi ki, torpaqları yalnız zor gücünə almaq mümkündür:** “Qan tökməsən, vətəni qorumaq olmaz. Qarabağın işğalı məsələsi hələ təzə başlayanda mən o fikirdəydim ki, torpağı yalnız qan töküb almaq lazımdır. Təbii ki, burada ölən də olacaq. Amma neyləmək olar?! Biz vətəni özümüzdən sonra gələn nəslə bütöv verməliyik. Parçalana-parçalana getmişik. Güney Azərbaycan bir tərəfdə, Dərbənd o tərəfdə, Göyçə bir tərəfdə. Qarabağ da belə olsa, nə olacaq? Parçalana-parçalana böyük Azərbaycandan nə qalıb? Biz geri çəkilsək, tarix bunu bizə bağışlamaz. Müdafiə naziri birinci gündən deyəndə ki, torpaqlarımızı müharibə yolu ilə alacağıq, mən o fikri alqışlamışam. Bizi bu məsələdə Türkiyədən başqa heç kim dəstəkləmir. Mən heç kimə inanmıram. Biz yalnız özümüzə və ordumuza güvənməliyik. Güclənməli və qısa zamanda torpaqlarımızı müharibə yolu ilə almalıyıq”.

❑ **Günel MANAFLI**

# Yenə karikatura qalmaqalı, yenə terror...

## Texas hücumlarının arxasından İŞİD çıxdı; Qərbdə “İslam terroru”nu kim dirçəltmək istəyir?

**Mayın 3-də ABŞ-ın Texas ştatında karikatura sərgisinin keçirildiyi salona terror hücumunun arxasından İŞİD çıxıb. Sərgi salonu qarşısında polislərə hücum edən və bir polisi yaralamış, daha sonra isə özləri öldürülmüş iki terrorçunun şəxsiyyəti müəyyən olunub. Onlar Elton Simpson və Nadir Soofi adlı şəxslər olub. Ötən gün isə İŞİD terror hücumuna görə məsuliyyəti öz üzərinə götürdüyü barədə açıqlama verib.**




Baş verənlərin hələ “başlanğıc” olduğu qeyd edilən açıqlamada yeni hücumlar barədə də danışılır. **Sitat:** “ABŞ torpaqlarında ilk hücumumuzu həyata keçirdik. İki əsgərimiz Həzrət Məhəmmədin (s.ə.s) uyğun olmayan şəkildə əks olunduğu sərgiyə hücum etdi. Bu hələ başlanğıcdır. Daha böyük və dəhşətli hadisələr olacaq”.

Bu arada bəlli olub ki, Elton Simpson ABŞ-ın Federal Təhqiqatlar Bürosu (FBI) tərəfindən izlənilib və 2006-2010-cu illər ərzində onun 1500 saatlıq danışıqları qeydə alınıb. Lakin son hücum barədə hüquq-mühafizə orqanları xəbərsiz olub. FTB Arizona ştatında Simpsonun yaşadığı mənzildə axtarış aparıb. Simpsonun hücumdan əvvəl internetdə cihad mesajları yazdığı bildirilir. O da məlum olub ki, Simpson bir neçə il əvvəl Somaliyə getmək planları barədə məhkəməyə yalan danışdığına görə məhkum edilib. Öldürülən terrorçuların hər ikisi eyni mənzildə yaşayırmış.

Qeyd edək ki, İslam Peyğəmbərinin (s.ə.s) karikaturalarının nümayiş olunduğu sərgini Qarland şəhərində Amerika Azadlığı Müdafiə Təşəbbüsü (American Freedom Defense Initiative) təşkilatı keçirib. Təşkilatın rəhbəri ziddiyyətli bloqçu, İslam əleyhdarı kimi tanınan Pamela Gellerdir. Tədbirin əsas çıxışçılarından biri isə holland siyasətçi, İslama qarşı sərt münasibəti ilə tanınan Geert Wilders olub. Hollandiyalı siyasətçi daha əvvəl İslama qarşı çıxışları, Quranı təhqir etməsi ilə gündəmə gəlib. Sözügedən hücumdan sonra isə o, sərgini Hollandiyada keçirmək təklifini irəli sürüb.

Qorlandda keçirilən sərgi-konfransda karikatura üçün 10 min dollar mükafat müəyyən edilib. Ancaq sərgi ABŞ-da etiraza səbəb olub. Amerika müsəlman təşkilatları İslam Peyğəmbərini aşağılayan sərginin keçirilməsini pisləyib və təxribat cəhdi adlandırıb. Tədbirin təşkilatçısı Pamela Geller isə öz addımını “azad sözün ifadəsi” adlandırıb. Terror hücumuna Ağ Ev də münasibət bildirib. AzadlıqRadiosunun məlumatına görə, Ağ Ev sözçüsü Josh Ernest deyib ki, prezident Barak Obama vəziyyət barədə vaxtaşırı məlumatlandırılır. Sözçü əlavə edib ki, “azad ifadənin kobudluğu ona qarşı zorakılığa haqq qazandırmır”.

Yada salaq ki, daha əvvəl Avropada - Danimarkada, ardınca isə Fransada İslam Peyğəmbərinin (s.ə.s) karikaturasının çəkilməsi böyük qalmaqala səbəb olub. Bu ilin yanvarında Fransada “Charlie Hebdo” jurnalında peyğəmbərin karikaturalarının dərc olunmasından sonra məcmuənin redaksiyasına basqın edilib və 12 nəfər öldürülüb.

Son hadisələr onu göstərir ki, İslam adı altında terror və zorakılığı təşviq etmək cəhdləri davam edir. Fransada 12 nəfərin ölümü ilə nəticələnən qanlı terror hücumundan 100 gün keçməmiş Amerikada karikatur sərgisi keçirərək müsəlmanları zorakılığa təhrik etmək məqsədi daşıdığı aydın görünür.

Hər kəsə aydındır ki, İslam müqəddəslərini ələ salmaq “söz azadlığına” hansısa dəstək ola bilməz. Bu, olsa-olsa müsəlmanları haqlı olaraq qəzəbləndirəcək və təbii ki, İslamçı terror qruplaşmaları üçün yeni fürsətlər açacaq. Əlbəttə, Texasdakı karikatur sərgisinə hücum aksiyasının terrorçu təşkilata nə qədər aid olduğunu demək çətindir. Ancaq İŞİD-in tez-tələsik bəyanat verərək məsuliyyəti öz üzərinə götürməsi onu göstərir ki, bu cür hadisələr terror qrupları üçün göydəndüşmədir. Elə hollandiyalı Vilders üçün də. İslama hücum bu cür “siyasətçilər” üçün siyasi “kredit” hesab oluna bilər. Çünki belə şəxslər üçün karyera, elektorat dəstəyi və bütövlükdə siyasi mövcudluğunu qoruyub saxlamağın ən optimal yolu radikal, irqçi çağırışlardır. İslam isə artıq 10 ildən çoxdur Vilders üçün “iş yerinə” çevrilib.

Təbii ki, Ağ Ev sözçüsünün dediyi kimi, “azad ifadənin kobudluğu ona qarşı zorakılığa haqq qazandırmır”. Ancaq o da aydın olur ki, ifadə azadlığında ifrat sərhədsizlik təhqirə və zorakılığa təşviqə gətirib çıxarır. Bunun qarşısını almaq, həm insanların inanclarının təhqir olunmaması, həm də bu hadisələrin zorakılıq çağırışlarına səbəb olması, terrorçular üçün bəhanə verməməsi üçün söz azadlığı ilə təhqir arasında sərhədlərin dəqiq müəyyən olunmasına ehtiyac var. Əks təqdirdə, son nəticədə vilderslər, gellerlər və İŞİD hələ uzun müddət meydanda qalacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU**

## Göyçəlilər “ikinci deportasiya” ərəfəsində










# Məmurlar Gəncəbasarda kəndləri işğal edib



### Göygöl ərazisindəki Yeni Zod, Hacıkənd, Kamo, Mixaylovka və Azad kəndləri boşaldılır; sakinlərə süni problemlər yaradılır ki, bezib evlərini tərk etsinlər; əsas şikayət Gəncənin icra başçısı Elmar Vəliyevdəndir

**Göygölün Yeni Zod kəndi məmurların işğalı altında inləyir. Gözəl təbiəti, havası olan bu kənd artıq hiss-hissə oliqarxlar, vəzifəlilər tərəfindən zəbt edilməkdədir. Kənd camaatı elə bir problemlərlə üz-üzə qoyulub ki, məcburiyyət qarşısında yurd-yuvasını tərk etməli olsunlar.**

Yeni Zoddan didərgin salınan kənd əhalisinin yerini imkanlılar, vəzifəli məmurlar ələ keçirir. Buralar gözdən-könüldən uzaq olduqca gözəl, füsunkar məkandır. Dağların qoynunda yerləşən kəndlərin maqnitttək məmurları cəlb etməsinin bir səbəbi də budur.

Xüsusilə də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin bu “işğalda” müstəsna iştirakı var. Gəncə İH başçısı Göygölün bu cənnət məkanını zəbt edərək qeyri-rəsmi özəlləşdirib. Kənd sakinlərinin ərazilərini alan, torpaq sahələrini özününküləşdirən E.Vəliyev bu istəyinə mərhələli şəkildə müvəffəq olur.

Belə ki, sakinləri sosial, kommunal çətinliklər qarşısında qoymaqla, onları evlərindən çıxara bilir. Ötən gün bir qrup kənd sakininin dəvəti ilə Yeni Zodda olub, yuxarıda bəhs etdiyimiz məsələləri yerində araşdırdıq.

Məlum oldu ki, E.Vəliyev Yeni Zodu şəxsi rançosuna çevirib.

Narazı qalan kənd camaatı isə nə edəcəyini bilmir. Çünki onlar başlıca olaraq su problemi ilə imtahana çəkilir. Bu “sınaq”dan çıxa bilməyən əhalinin torpaqları əlindən alınaraq, malikanələr, villalar tikilməyə başlayıb.

Sakinlər rayon mərkəzindən 16 kilometr aralıda olan bu kəndin problemlərindən cana doyub. 1100 nəfər sakini olan kəndin sakinləri yol, işsizlik kimi problemləri sadalasalar da, özəlliklə suyun olmamasından şikayətlənirlər. Deyirlər ki, illərdir su üçün kəndin bir başından o biri başına gedir, yol kənarından su gətirirlər. Özü də əllərində...

Kəndin başındakı körpü yaxınlığında bulaqdan su daşıyan sakinlər əkin-biçin üçün də heç bir şəraitin olmadığını bildirirlər. Sakinlər danışırlar ki, təsərrüfat işləri görməyə imkan yoxdur. Susuz qalan Yeni Zod sakinləri məcbur qalıb torpaq sahələrini sataraq kəndi tərk edirlər. Kəndlərdəki əksər evlərin qapılarında “satılır” elanları asılıb.

Kənd camaatı bunun məqsədli şəkildə həyata keçirildiyi inancındadırlar. Deyirlər ki, məmurlar Yeni Zoda göz dikib, bu kəndin təbiətinə, şəraitinə vurğun olub, məskən salırlar. Odur ki, kənd camaatı ev-eşiyini tərk edib gedir.

**Kənd sakini Rəfiqə Orucova deyir ki, su əzabı nə vaxt bitəcək, bilmirlər:** “Bulaqdan su daşıyırıq. Camaat da neyləsin, su yoxdur deyə torpağını, evini satıb gedir. Əkin-biçinlə məşğul olmaq olmur. Su sarıdan çox şikayətimiz var.

Mən özüm qoca qarıyam. Gedib dərənin başından su gətirirəm. Bu yaşda belə əziyyət olar? Rövşən müəllim bizə su vermir. Kəndin başında körpü var, oradakı bulaqdan götürürük. Biz su görmürük. Amma gəlməyən suyun da pulunu alırlar. Kənd camaatı da köçür Bakıya, Gəncəyə. Susuzluğa görə həyatımız cəhənnəm olub. Biz illərdir ki, su görmürük”.

**R.Orucova qeyd edir ki, su verilsə camaat da köçməz:** “Yeni Zod, görürsünüz, necə gözəl bir yerdir. Buranın havasını heç nəyə dəyişmərəm. İnsan burda heç xəstəlik taparmı? Bizim kənd kimi havası gözəl yer yoxdur. Ona görə də gözləri düşüb, almaq istəyirlər”.

Kənd sakini Vilayət Kazımov isə bildirir ki, Yeni Zoda daxil olan Kamo, Mixaylovka, Azad kəndlərində məmurlara su verilir. Onun sözlərinə görə, Gəncənin icra başçısı Elmar Vəliyev və başqa məmurlar bu ərazilərdə özləri üçün yeni xəritə tərtib ediblər. Bu “xəritə”də yalnız özləri üçün nəzərdə tutulan villalar, dəbdəbəli evlər tikmək planı var.

Sakinlər tələb edirlər ki, tezliklə sosial problemlər həllini tapmalıdır. Bildirirlər ki, müvafiq qurumlar camaatın dərdi ilə maraqlanmır. Bunu da bilərəkdən edirlər ki, kəndlər boşalsın, kimsə qalmasın və məmurlar öz istəklərini həyata keçirsinlər.

**Təxminən Xaçmazın keçmiş Xraxoba kəndi kimi bu yerləri də boşaldıb, ələ alırlar. Azad kəndinin sakini Vahid Bəşirov söyləyir ki, məmurların etdiyinin adı mədəni formada işğaldır:** “Bizə elə zülm çəkdirirlər ki, burdan çıxıb gedək. Mən özüm Bakıya gedib-gələn adamam. Orda necə ki ”Sovetski”, “Basin”də yaşayanları evdən çıxarmaq üçün gah suyunu, gah işığını kəsirdilər, biz də eyni əzabı görürük. Mən ata-baba yurdumdan niyə çıxmalıyam? Çıxım ki, bunlar gəlib otursunlar, kef çəksinlər?!”



Onu da deyək ki, bu kəndlər Göygöl rayonu ərazisindədir və Gəncə ilə sərhədi yoxdur. Amma rəsmi olaraq Gəncənin tabeçiliyindədir. Bu bölgü hələ sovet dövründə aparılıb. Amma indi şəxsi məqsədlər üçün istifadə olunur. Zod deyəndə, hər şeydən əvvəl, Göyçə mahalı, böyük ustad Ələsgər yada düşür. Zod əhalisi 1988-ci ildə bütöv halda Göygöl rayonunun ermənilərdən təmizlənmiş Azad və Kamo kəndlərində yerləşiblər. Sakinlər deyirlər ki, həyatı təzədən başlamaq, ev-eşik, həyət-baca düzəltmək, gün-güzəran qurmaq lazım idi.



Beləcə, Zodun yeni həyatı başlayıb. Ona görə də ağsaqqallar, ziyalılar belə qərara gəliblər ki, elə kəndin adını da “Yeni Zod” qoysunlar. Qoy yeni doğulan uşaqlar, gələcək nəsillər ata-babalarının hardan-hara köç etdiklərini, həm də bu adla müəyyən edə bilsinlər. İndi isə bu kəndlərdən də köçürülürlər.

❑ **“Yeni Müsavat”ın Reportyor Qrupu**




**P.S.** *Yazıda adıçəkilən şəxslərin, həmçinin Gəncə Şəhər İH başçısı Elmar Vəliyevin mövqeyini qəzetdə çap etməyə hazırıq.*







YENİ MÜSAVAT
N 97 (6125) 6 may 2015



## Bakıda kriminal avtoritetin qardaşı həbs edildi

**Bakıda tanınmış kriminal avtoritetin qardaşı həbs edilib. Suraxanı Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, əvvəllər bir neçə dəfə müxtəlif cinayətlərlə məhkum olunan İbrahimov Ayət Abbas oğlu narkotik vasitələrin qanunsuz dövriyyəsində təqsirli bilinərək tutulub. Saxlanılarkən ondan narkotik tərkibli vasitə götürülüb.**

Qeyd edək ki, A. İbrahimov "Lotu Tahir" ləqəbi ilə tanınan Tahir İbrahimovun qardaşıdır.

## Odessa məhkəməsi azərbaycanlılara atəş açan bolqarı həbs etdi

**Ukraynanın Odessa şəhərində 3 azərbaycanlıya atəş açan 21 yaşlı bolqar tələbə haqqında həbs-qətimkan tədbiri seçilib.**

APA-nın yaydığı xəbərə görə, bu barədə Odessanın Kiyev Rayon Məhkəməsi qərar qəbul edib.

Xatırladaq ki, mayın 1-də şəhərdə keçirilən bayram tədbirində gənclər arasında mübahisə baş verib. Tərəflər münasibətləri aydınlaşdırmaq üçün axşam görüşmək qərarına gəliblər. Onlar yerli vaxtla axşam saat 23:00-da Odessa Ekoloji Universitetinin yataqxanasının qarşısında görüşüblər və atışma başlayıb. 3-cü kurs tələbəsi olan Bolqarıstan vətəndaşı 3 azərbaycanlıya odlu silahdan atəş açıb və onları yaralayıb. Yaralılar xəstəxanaya yerləşdirilib.

## "McDonalds" restoranlarını bağlayır

**Dünyanın ən böyük "fast-food" restoranlar şəbəkəsi olan "McDonalds"ın yeni inkişaf strategiyası təsdiq olunub. Fins.az-ın xarici mətbuata istinadən yaydığı məlumata görə, strategiyada korporasiya daxilində 4 bölmənin yaradılması nəzərdə tutulub. Bölmələrdən biri sırf ABŞ bazarı ilə işləyəcək. Digər bölmələr isə ABŞ-dan kənarda inkişaf etmiş, inkişaf etməkdə olan və yenicə formalaşan bazarları əhatə edəcək. Bundan başqa, yeni strategiyada optimallaşdırma tədbirləri də nəzərdə tutulub.**

"McDonalds" ilin sonuna qədər 700 ticarət nöqtəsini bağlamaq niyyətindədir. 2014-cü ilin yekunlarına görə, şirkətin bütün dünya üzrə 36 min civarında restoranı olub. "McDonalds" bəyan edir ki, satış obyektləri artıq 2 ildir ki, planı yerinə yetirə bilmirlər. Bu ilin 1-ci rübündə isə restoranlar şəbəkəsinin gəliri 11%, xalis mənfəəti 33% azalıb.






# Tural Mustafayevin videoaçıqlaması Xədicə İsmayıla kömək edəcəkmi...

**Fariz Namazlı:** "Ciddi arqumentlərdir, təsdiqini taparsa, intihar həddinə çatdırma məsələsinə xitam verilməlidir"

**Araşdırmaçı jurnalist Xədicə İsmayılın həbsinə səbəb olan Tural Mustafayevin son günlərdə yayılan videoaçıqlaması müzakirə olunan mövzulardan biridir. Videoda T.Mustafayev xanım jurnalistə qarşı şikayətini təzyiq altında verdiyini və ərizəsindən imtina etdiyini bildirir.**

Bundan əlavə, T.Mustafayev intihara cəhd etməsinin səbəblərindən, başına gətirilənlərdən və kirayə tutduğu evdə pornovideoları yayılan şəxslərdən də danışır: "Ötən il oktyabrın 20-də intihara cəhd etdim. Samirə Ağayevanın köməkliyi ilə xəstəxanaya yerləşdirildim və qanımda olan zəhər yuyuldu. Bundan istifadə etdilər, təzyiqlər altında şikayət ərizəsi yazdım. Kirayə tutduğum evə kamera yerləşdirilmişdi. Məni şantaj etdilər ki, ifadə verməsən, evində çəkilən videogörüntülər yayılacaq. Porno görüntülərdə çox adam var. Onlar da Xədicənin əleyhinə ifadə veriblər".

**T.Mustafayev zorla ruhi xəstə kimi xəstəxanaya yerləşdirildiyini və müalicə edildiyini bildirib:** "Xədicədən şikayətçi deyiləm. Ərizəmi geri götürəcəyim təqdirdə, başıma oyunlar gətiriləcəyini bildiriblər. Buna baxmayaraq, şikayət ərizəmi geri götürürəm. İstintaqa heç bir sənəd təqdim etməmişəm. Yalandan könüllü təqdim etdiyim yazılıb. Baş prokuror Zakir Qaralova müraciət etmişəm. Ərizəmi geri götürməyim və ölkədən çıxışıma qoyulan qadağanın götürülməsi ilə bağlı. Videonu heç kimin təzyiqi altında çəkməmişəm".

İstintaqın bu videoya necə yanaşacağı maraq doğurur. Əgər videoda göstərilən faktlar araşdırılsa, heç şübhəsiz ki, yeni xüsusatlar ortaya çıxacaq.

**Xədicə İsmayılın vəkili Fariz Namazlı T.Mustafayevin səsləndirdiyi fikirlərin ciddi arqumentlər olduğunu söylədi:** "Bu fikirlər istintaqın obyektivliyini şübhə altına alır. Çox ciddi arqumentlərdir. Orada bəzi ittihamlar səsləndirilir. Təbii ki, bunlar ciddi şəkildə araşdırılmalıdır. Əgər onun Xədicə İsmayıla qarşı zorən ifadə verdiyi təsdiqini taparsa, artıq 125-ci maddə ilə bağlı məsələyə xitam verilməlidir. Sözsüz ki, qalan məsələlər qalacaq. Çünki AzadlıqRadiosu ilə bağlı da ittihamlar verilib. Bu məsələlər araşdırılmalıdır. Amma 125-ci maddə ilə bağlı məsələyə xitam verilməlidir. Təbii ki, kimlərisə ona qarşı hədə-qorxu altında ifadə verməyə məcbur ediblərsə, məsələ araşdırılmalı və həmin şəxslər məsuliyyətə cəlb olunmalıdır".

**Vəkil atacaqları addımlardan da danışdı:** "Hər şey araşdırmanın nəticəsindən asılıdır. Tural Mustafayevin özü ilə də söhbət etməyimiz düzgün çıxmaz. Çünki vəkilin zərərçəkmiş şəxsə qarşı təzyiqi kimi qiymətləndirə bilərlər. Buna görə onunla hər hansı bir təmas qurmağımız düzgün çıxmaz. Tural Mustafayev bu gün bir fikirdə olur, sabah başqa fikirdə ola bilər. Sonra deyə bilər ki, vəkillər mənə təzyiq edir. Amma bununla bağlı müraciət edə bilərik. Xədicə xanımın özü ilə görüşüb, bu məsələləri müzakirə edəcəyik. Ondan sonra hər hansı bir addım atacağıq".

Videoda adı keçən aidiyyəti qurumlar və şəxslərin mövqeyini öyrənməyə çalışsaq da, mümkün olmadı.

Xatırladaq ki, Xədicə İsmayıl dekabrın 5-də həbs olunub. Xanım jurnalist Tural Mustafayevi intihara vadar etməkdə təqsirləndirilir.

❑ **Cavanşir ABBASLI**

# Ruslar Britaniyadan 356 milyard dollar çıxarıb

**Rusiyalı investorlar son 15 ay ərzində Britaniyadan 356 milyard dollar çıxarıblar. "Times" qəzeti xəbər verir ki, bu, Britaniya seçkilərindən sonra ölkədə olacaq vəziyyətin qeyri-müəyyənliyi və Rusiyaya qarşı sanksiyaların gələcəyidir.**

"CrossBorder Capital" maliyyə agentliyi bildirir ki, bu qədər pulun ölkədən çıxarılması misilsiz hadisədir və funt-sterlinqin kursuna ciddi təsir göstərə bilər.

Bununla belə, "CrossBorder Capital" agentliyi pulların hansı banklardan çıxarılıb hara köçürüldüyü barədə məlumat verməyib.



Bəzi ekspertlər isə bu hadisəni dolların güclənməsi ilə əlaqələndirir. Onların fikrincə, dolların məzənnədə qalxması rusiyalı investorları pullarını funt-sterlinqdən dollara keçirməyə sövq edir.

Digər tərəfdən, ruslar pullarını əsasən Moskva üzərinə Ukraynaya görə qoyulan sanksiyalardan sonra çıxarmağa başlayıblar.

Ötən ilin dekabrında Rusiya prezidenti Vladimir Putin oliqarxları öz pullarını "vətənə qaytarmağa" çağırmışdı.

# Consonun ikinci gəlişi



**Samir SARI**

**İlk baxışdan adi davadır. Bir az da özünümüdafiəyə oxşayır. Ha zənd eləyirsən, videokadrlarda eləcə dalaşanların peysərləri görünür, üzü o tərəfə durub döyüş vəziyyəti alıblar, arada da kiməsə yumruq ilişdirirlər.**

Əlbəttə, peysərlərindən ingilisə oxşayırlar da, oxşamırlar da, amma idmançı olduqları şübhəsizdir. Heç bir başqa peşə sahibində o cür peysər olmaz. Məsələn, onlar pianoçu olsalar, birincisi o boyda olmazlar, ikincisi, hər saat durub dalaşmazlar *(dalaşsalar da, döyülərlər)*, konflikti lirik ladlar üzərində kökləyib, beş-altı "no problem", "ikskyuzmi", "sorri" deyib vəziyyətdən çıxarlar.

Ancaq görün, bu ingilis idmançılar neyləyib. Kadrlarda görünmür, amma deyilənə görə, bir milli polisi əzişdiriblər, çənəsini qırıblar, hələ papağını da başından salıblar.

Xəbərə görə, "Hiss klub"da ingilis turistlərin mühafizə polisini döyməsi faktı ilə bağlı hələlik həbs edilən yoxdur və cinayət işi də açılmayıb. Elə olar. Başqa cür olmaz. Bizdə qonağa hörmət var. Xüsusilə də ingilis qonağa. Bunlar pakistanlı, çinli səyyar satıcılar deyil ki, uşaqlar küçədə-bayırda "bes manat, üs manat" deyib dallarınca düşsünlər.

Heç ingilislər onu da bilmirlər ki, özlərində olduğu kimi, bizdə də polis toxunulmazdır və onun papağına əl vuran adamı tutub qoyurlar içəri. Bu da özümüzə aiddir, bizdə biri eləsə, yerindəcə döyülər və tutular. Amma elə bir qanacaqsızlığı ingilislər, fransızlar edəndə məcburuq onları qurban edək Avropa Oyunlarına, avropalı qonaq olmalarına.

Bununla belə, qonaq da qonaq qələtini eləməlidir, özünü təvazökar, mərifətli aparmalıdır. Bizim idmançılar da düşəndə ora-bura, Amerikaya, İngiltərəyə, Fransaya gedirlər. Heç eşitməmişəm ki, bizim idmançılar getdikləri ölkədə hansısa barda, oteldə dava salsınlar, polis döysünlər. Hərgah elə bir şey eləsələr, onları peysərləyib polis bölməsinə basar, orda da bir az öz dillərində zəvzəyib, bunları yalvardar, sonra gecəylə təyyarəyə mindirib deportasiya edərlər.

İndi bəziləri yazır ki, "mədəni" ingilislərdən bunu gözləməzmişlər. Nə mədəni? Bunlar idmançıdırlar, yazıçı, rəssam, fleytaçı, jurnalist, aktyor deyillər. Bunlar heç mədəni Devid Bekhem də deyillər, olsa-olsa, Ueyn Runinin daha qaba versiyasıdırlar.

Son 20 ildə dünyanın ən məşhur şəhərlərində ingilis azarkeşlərdən çox dava salan, qan tökən yoxdur. O vaxt, sizin eradan əvvəl "Qalatasaray" UEFA çempionu olduğu il bir dəstə ingilis futbol fanatı gəlib İstanbulda lotuluq eləmiş, yetənə yetib, yetməyənə pivə şüşəsi atmışdılar. Bundan qeyzlənən türk fanatlar da çox hiddətlənmişdilər və bir neçə ingilisi yortmuşdular. Az qala iki ölkə arasında qanqaraçılıq düşəcəkdi.

Onlarda qaydadır tez-tez hansısa matça baxmaq üçün dəstə-tifaq başqa ölkələrə gedirlər. Ən çox da İtaliyaya. Gedir, yeyib-içir, sərxoş olur, axırda italyanlara "makaronyeyənlər" deyib sataşır, dava salırlar. Amma ordakı tiffozilərin də başı xarabdır, ingilisləri necə lazımdır, qarşılayır, araya salıb təpikləyir, teyxa bintin, bandajın içində yola salırlar. Almanlar da elədir. İngilislərin gücü bircə fransızlara çatır, Parisə, Liona girən kimi yazıqları təpə-qapaz edirlər. İndi belə görünür ki, yaramazlar bizi də fransız yerinə qoyublar.

Bəlkə də bizim kimi maymaq heç Fransada da yoxdur. Orda heç olmasa polis cinayət işi açardı. Bizdə polisin qırılan çənəsi ara yerdə getdi.

Bu, hələ jurnalıdır, qoy bəziləri demişkən, gələn ay "Yevrovizion" *(Avropa Oyunlarına belə deyirlər)* başlasın, görün, nə həngamə qopacaq. Bizim fanatlar, xuliqanlar ingilislərə, hollandlara yaxın gedə bilməyəcəklər, əvəzində onlar düz 18 gün Bakıda kef və lotuluq edəcəklər.

Məsələni siyasiləşdirəsi olsaq, deməliyik ki, 1918-ci ildə olduğu kimi Bakımız yeni bir ingilis işğalına məruz qalacaq. Bu dəfə onlar təkcə 26 Bakı komissarını əsir götürüb özləri ilə Ağcaqum çölünə aparmayacaqlar, hamımızı əsir-yesir edəcəklər.

Şair yerində yazıb: "Tiq Conson qart köpəkdi, ölüm toxumu əkdi"... Gərək araşdıraq, bəlkə də polisimizin çənəsini qıranın soyadı elə Consondur.

YENİ MÜSAVAT
N 97 (6125) 6 may 2015

# Bazarlarda nübar meyvələr ət qiymətinə satılır

## Alıcı: "Lobyaya verdiyim pula bir kilo ət ala bilərəm və ən azından 2-3 dəfə bişirə bilərəm"

**Bazarlarda yeni çıxmış nübar meyvələr, tərəvəzlər, həmçinin mövsümə uyğun olmayan meyvə-tərəvəzlər də bolluq təşkil edir. Biz də bu meyvə-tərəvəzlərin qiymətini öyrənmək üçün "Yaşıl bazar"a üz tutduq.**





Piştaxtalardakı çiyələk, alça, şaftalı, ərik, qarpız insanın gözünü oxşayırdı. Bu meyvələrin yanından almadan keçmək mümkün olmasa da, qiymətləri alıcıları bu fikrindən daşındırır. Bazarda apardığımız müşahidə zamanı da gördük ki, alıcılar nübar meyvələrin qiymətini soruşub uzaqlaşırlar. Bunu görən satıcılar hətta alıcının arxasınca "yaxşı, gəl 8 manatdan apar" deyə, çağırırdılar. Qiymətlərə gəlincə isə ərik 7 manat, şaftalı 6 manat, alça iriliyindən asılı olaraq 5-12 manat arası, qarpızın bir kiloqramı 2 manat 50 qəpik, banan 2 manat 80 qəpik, armud 3-4 manat arası, alma 80 qəpik 3 manat arası, portağal 2 manat 50 qəpik, ananas 5 manat, lobya 7 manat, gül kələm 1 manat, yarpaq kələm 80 qəpik, pomidor 1 manat 50 qəpik 3 manat arası, xiyar 1 manat 30 qəpik, yeni çıxmış yarpaq 2 manat 50 qəpik 5 manat arası, badımcan 2 manat 30 qəpik, bibər 5 dənəsi 1 manat, kartof 1 manat 30 qəpik, soğan 1 manata satılırdı.

Satıcılar bazarda xaricdən gətirilən nübar meyvələrlə yanaşı yerli nübar meyvələrin də olduğunu deyirdi. Meyvə satıcısı Bəhram Mirzəyev onun satdığı çiyələyi Şəmkirdən, alçanı isə Göyçədən gətirdiyini dedi: **"Elə meyvələr var Türkiyədən, İrandan gətirilir. Amma mənim satdığım meyvələr yerlidir. Ona görə də nisbətən baha satıram. Dadları da fərqlidir. Xaricdən gətirilən çiyələk dadsız olur. Amma yerli çiyələk şirin dadır".**

Qarpız alıcıları isə demək olar ki, yox idi. Bunu qarpız satıcısı Yusif Əliyev də təsdiq etdi. Qarpız satıcısı bu bostan bitkisini almağa insanlarda müəyyən qorxu olduğunu bildirdi. Satıcı qarpız alan alıcıların da çox vaxt dadsızlığından şikayət etdiklərini dedi: **"Təbii olaraq vaxtında yetişən qarpızla süni yolla yetişdirilən qarpızın dadı fərqlidir. Bunu başa düşmək lazımdır. Amma bu o demək deyil ki, qarpızı yeyən adam zəhərlənir və ya ölür. Belə olsa biz bunu satmarıq".**

Alıcılar isə meyvələrlə yanaşı nübar tərəvəzlərin də qiymətindən narazılıq edirlər. Lobyanın qiymətini soruşduqdan sonra dərhal oradan uzaqlaşan alıcının da nübar meyvə-tərəvəzlərlə bağlı fikrini aldıq. Aynur Rəsulova adlı alıcı lobyanın ət qiymətinə bərabər olduğunu dedi: **"Lobya 7-8 manatdır. Lobyaya verdiyim pula bir kilo ət ala bilərəm və ən azından 2-3 dəfə bişirə bilərəm. Ümid edirəm ki, yayda da belə bahalıq olmayacaq".**

Qeyd edək ki, əslində hər meyvə öz fəslində yeyiləndə orqanizm üçün daha faydalı olur. Süni istilik və hormonlarla yetişdirilən hansısa meyvənin keyfiyyəti öz iqlimində, təbii istilikdə yetişən meyvənin keyfiyyəti qədər olmur. Bədənimizdə qış aylarından toplanmış toksinləri təmizləmək üçün yay fəslinin meyvə-tərəvəzləri köməyə yetir. Mütəxəssislər noxud, paxla, ispanaq , təzə lobya kimi tərəvəzlərin toksinlərin bədəndən sürətlə xaric edilməsinə kömək etdiyini bildirir. Əslində çiyələk, badımcan, pomidor, soğan, ərik kimi meyvə-tərəvəzlərlə may ayında, iyun ayında təzə pomidor, təzə paxla, dolmalıq bibər, kahı, iyul və avqust aylarında gilənar, qarpız, ərik, təzə sarımsaq, yemiş, üzüm, gilas, tut kimi məhsullarla qidalanmaq lazımdır.

Qeyd edək ki, həkimlər bu mövsümdə meyvə-tərəvəzi çox qəbul etməyi daha məqbul hesab edirlər. Amma biz həm də nə yediyimizin fərqində olmalıyıq. Təəssüf ki, qəbul etdiyimizin qidaların ərzaq təhlükəsizliyinə tam təminat yoxdur.

❑ **Günel MANAFLI**










# "Bakcell" 4G-ni təqdim etdi: daha sürətli internet vədi...

## Riçard Şirer: "Bu xidmətdən istifadə ölkədə İKT-nin inkişafına xidmət edəcək"




**Ölkənin ilk mobil operatoru olan "Bakcell" şirkəti mayın 5-də 4G xidmətini təqdim edib. Bununla bağlı media üçün keçirilən təqdimatda "Bakcell" şirkətinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Süheylə Cəfərova ilk olaraq bildirib ki, artıq 4-cü Sür@ brendinin 4G LTE xidməti kommersiya istifadəsinə verilib: "Mobil internet sürətinin əhəmiyyətli dərəcədə artmasını təmin edən 4-cü Sür@ xüsusilə mobil olmaq və bütün məkanlarda internetə yüksək sürətli çıxış imkanı əldə etmək istəyən istifadəçilər üçün nəzərdə tutulub".**

Onun sözlərinə görə, 4G xidməti sayəsində "Bakcell" abunəçiləri şirkətin ən müasir LTE şəbəkəsindən faydalanaraq, iri həcmli faylları, demək olar ki, bir göz qırpımında yükləyib göndərə, musiqi axınları buferizasiyanı gözləmədən dinləyə, habelə şəbəkədə ləngimənin cüzi olduğundan onlayn oyunlar oynaya biləcəklər.

**"Bakcell" şirkətinin baş icraçı direktoru Riçard Şirer isə qeyd edib ki, bu xidmətdən istifadə ölkədə İKT-nin inkişafına xidmət edəcək:** "Yüksək sürətli internet yüksək keyfiyyətli internet deməkdir. Müştərilər də bundan faydalanacaq".

**Onun sözlərinə görə, ilk mərhələdə bu xidmətdən Bakının bir neçə rayonunda istifadə etmək mümkün olacaq:** "Lakin bizim planlarımıza bu şəbəkənin sürətlə genişləndirilməsi daxildir. Belə ki, şəbəkə yüksək tələbatın və 4G texnologiyasını dəstəkləyən cihazların kifayət qədər olduğu bütün əraziləri əhatə etməlidir. Biz "Bakcell" abunəçilərinə ən yüksək keyfiyyətə malik 4G LTE xidmətlərini təqdim etməkdən qürur duyuruq. Son 4 il ərzində ən yaxşı mobil internet xidməti kimi öz təsdiqini tapmış 3G Sür@ xidmətindən sonra abunəçilərimiz "Bakcell"in bazarda ən yüksək keyfiyyətə malik və ən yaxşı qiymət təklifi təmin edən 4-cü Sür@ xidmətindən istifadə edə bilərlər. Azərbaycan bazarında 4G xidmətlərinə olan tələbat və 4G texnologiyasını dəstəkləyən cihazların sayı əhəmiyyətli dərəcədə artmaqdadır və biz hesab edirik ki, LTE xidmətlərini istifadəyə vermək üçün indi ən münasib vaxtdır".

Təqdimatda "Bakcell" təmsilçiləri bildiriblər ki, "Bakcell" bazarda smartfon istifadəçiləri üçün 4G xidmətini təklif edən ilk operatordur. Smartfon istifadəçiləri təklif olunan müxtəlif variantlardan birini seçə bilər ki, bunlardan da ən əlverişlisi ayda cəmi 10 manata 3GB həcmində 4G xidməti təklif edən xüsusi kampaniyadır. Həmçinin qeyd edilib ki, "Bakcell" ölkədə fəaliyyət göstərən mobil operatorlar arasında 4G mobil internet xidmətindın istifadə edən ən çox abunəçi sayına malik olduğunu tam əminliklə iddia edə bilər. Vurğulanıb ki, 4G təchizatçılarının təqdim etdiyi məlumatötürmə sürəti 3G şəbəkəsindən on dəfəyə qədər daha sürətlidir.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



# Azərbaycanda qida təhlükəsizliyi: təhlükə var...

## İSN rəsmisi: "Daha keyfiyyətli və təhlükəsiz mal və xidmətlərlə təmin olunması məqsədilə istehlak bazarına daimi nəzarət həyata keçiririk"

**Azərbaycanda qida təhlükəsizliyi narahatlıq doğuracaq qədər kritik vəziyyətdədir. Bəzən sevə-sevə yediyimiz bir yemək bizim sağlamlığımıza qənim kəsilə bilər. Ölkənin ərzaq bazarında qida təhlükəsizliyini dəyərləndirən ekspertlərin araşdırmalarına əsasən, hər an qida zəhərlənməsi ilə qarşılaşa və onun mənfi təsirlərini zaman-zaman hiss edə bilərik. İstər kimyəvi maddələrlə zəngin sənaye istehsalı olan məhsullar, istər GMO tərkibli kənd təsərrüfatı məhsulları, istərsə də mağazalarda vaxtı keçmiş mallar hər an sağlamlığımızı təhdid edir.**

"Yeni Müsavat"a açıqlamasında Azərbaycanda qida təhlükəsizliyi ilə bağlı durumu şərh edən **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bildirdi ki, bu, son dərəcə aktual məsələdir: "Təsadüfi deyil ki, bundan narahat olan ABŞ İnkişaf Agentliyi (USAİD) Azərbaycanda 5 il müddətində Azərbaycan məhsullarının rəqabətə davamlılığı və təhlükəsizliyi ilə bağlı yoxlamalar həyata keçiriblər. Bu illər ərzində cəmi iki mal beynəlxalq standartlara uyğunlaşdırılıb. Bu məhsullar balıq və balıq kürüsü və qoz-fındıq məhsullarıdır. 2011-ci ildə USAİD Azad İstehlakçılar Birliyinə müraciət etdi və vəziyyətdən çıxış yolu kimi "Azərbaycan istehlakçılarının qida təhlükəsizliyi nişanı" təsis etməyi xahiş etdi. Biz belə bir nişanı dövlət qeydiyyatına aldırdıq. USAİD Azərbaycanda təhlükəsiz qida istehsal edən müəssisələrin qiymətləndirmə alqoritmlərini bizə öyrətdi. Hansı müəssisə bu tələblərə cavab verirsə, biz onlara "Azərbaycan istehlakçılarının qida təhlükəsizliyi nişanı"nı təqdim etməli idik. 3 il ərzində cəmi 6 müəssisə buna layiq görüldü. "Şirin" və "Ulduz" şokolad fabrikləri, "İseland" dondurma istehsalı müəssisəsi, "Sevimli dad" və "Sab" ət məhsulları müəssisələri təhlükəsiz qida nişanı ilə təmin olundu. Bundan sonra da bir çox şirkətlər müraciət edib, lakin biz qiymətləndirmə apararkən görürük ki, təhlükəsiz qida istehsalı tələblərinə uyğun gəlmirlər. Bu dediklərim onu göstərir ki, ölkədə təhlükəli qida istehsalı davam edir və ölkədə qidanın təhlükəsizliyinə dair qanun da yoxdur. Avropa İttifaqı bu durumdan narahatdır və belə bir qanun layihəsi hazırlayaraq hökumətə təqdim edib. Lakin bu qanun hələ də qəbul olunmayıb. Qanun olmayan yerdə isə cinayət baş verir".

**Xaricdən idxal olunan məhsulların təhlükəsizliyinə gəlincə, E. Hüseynov bildirdi ki, birmənalı şəkildə əksər məhsullar GMO məhsullarıdır:** "Mən ölkənin bir nömrəli qəzeti vasitəsilə Azərbaycan istehlakçılarına müraciət edirəm ki, xaricdən idxal olunan məhsullar təhlükəlidir və arzuolunmazdır. Bu məhsullar uzun yol qət edir və onların gec xarab olması üçün məhsullara çoxlu kimyəvi maddələr vurulur. Məsələn, bazarda 3-4 ay yararlılıq müddəti olan xamalar, qaymaqlar və digər süd məhsulları var. Bunlar artıq kimyəvi maddələr qatılmış məhsullardır. Məhsulun yararlılıq müddəti uzandıqca onun tərkibindəki kimyəvi maddələr artır. Məhsulun ömrünü nə uzadırsa, insanın ömrünü o qısaldır. Xaricdən gətirilən mallar birmənalı şəkildə təhlükəlidir. Üstəlik, GMO mallar da xaricdən gətirilir. Bunu bütün dövlət qurumları etiraf etsə də, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin GMO laboratoriyasının müdiri deyir ki, Azərbaycanda belə bir hal yoxdur. Belə bir təzadlı fikir olan ölkədə təbii ki, təhlükəli məhsullar var".

**Ekspertin sözlərinə görə, bu sahəyə bir deyil, bir neçə dövlət orqanı nəzarət edir, lakin nəticə dəyişməz olaraq qalır:** "Əslində isə bütün qurumlar bazara nəzarət uğrunda mübarizə aparır. Satış mərkəzlərinə birmənalı olaraq İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti, qida məhsullarının təhlükəsizliyinə antisanitariya orqanları, kənd təsərrüfatı mallarına Kənd Təsərrüfatı Nazirliyi nəzarət edir. Lakin bunların işindəki qeyri-mükəmməllik ondan ibarətdir ki, sertifikat verən orqan həm də qidanın təhlükəsizliyinə nəzarət edə bilməz. İnsanlar zəhərlənəndə Səhiyyə Nazirliyinə müraciət edir, nazirlik bunu araşdırsa, məsələ gələcək özünün verdiyi sertifikatın üstünə. Bu baxımdan Azərbaycanda zəhərlənmələr 250 dəfə az göstərilir. Mən indiyə qədər görməmişəm ki, hansısa sənaye üsulu ilə istehsal olunan mal məhkəməyə verilsin, satıcı və ya istehsalçı məsuliyyətə cəlb olunsun. Zəhərlənmələri yalnız onunla əsaslandırırlar ki, insanlar özləri pis şoraba hazırlayıblar və sair. Ölkədə təhlükəli mal satılırsa, heç bir dövlət orqanının icazəsi yoxdur ki, gedib ora müdaxilə etsin".




**Eyyub Hüseynov:** "Məhsulun ömrünü nə uzadırsa, insanın ömrünü o qısaldır"

**İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, nazirlik yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti istehlakçıların daha keyfiyyətli və təhlükəsiz mal və xidmətlərlə təmin olunması məqsədilə istehlak bazarına daimi nəzarət həyata keçirir:** "Bu həm ərzaq, hm qeyri-ərzaq, həm də xidmətlər bazarını əhatə edir. Aparılan nəzarət tədbirləri mütəmadi xarakterlidir və müəyyən zamanlarda bu tədbirlərin intensivliyi daha da artırılır. Belə ki, xüsusi qeyd olunan günlərdə Yeni il və Novruz bayramlarında bəzi məhsullara tələbat artır, o baxımdan Dövlət Xidməti bəzi mal qruplarına nəzarəti artırır. Aparılan yoxlamalar barədə məlumat ictimaiyyətə açıqlanır. Daha bir tədbirimiz isə bu məsələdə istehlakçı aktivliyinin artırılmasıdır. Biz mütəmadi olaraq bölgələrdə istehlakçılarla görüşlər keçiririk, istehlakçılara və satıcılara broşurlar paylanılır. Həftədə bir dəfə maarifləndirici televiziya verilişi yayımlanır. İstehlakçı hüquqlarının qorunmasında əsas məsələlərdən biri də istehlakçı aktivliyinin artırılmasıdır. İstehlakçılar nazirliyin **(012) 498-15-04,** telefon nömrəsinə və **195-2** qaynar xəttinə zəng vurmaqla şikayətlərini bildirə bilərlər, həmin müraciətlər operativ şəkildə araşdırılır və qanunvericiliyə uyğun tədbirlər görülür".

❑ **Nərgiz LİFTİYEVA**

# Şok: keçmiş rəis müavinini arvadı və qızı öldürübmüş



**Bakıda keçən il törədilmiş dəhşətli qətlin üstü açılıb. Lent.az-ın hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, sentyabrın 1-nə keçən gecə Nizami rayonu Babək prospekti ev 17-nin yaxınlığında 1964-cü il təvəllüdlü İsgəndərov Füzuli Haqverdi oğlunun amansızlıqla öldürülməsi faktı ilə əlaqədar onun həyat yoldaşı və qızı həbs edilib.**

Aparılmış əməliyyat-axtarış, eləcə də istintaq tədbirləri nəticəsində F.İsgəndərovun qətlinin planlaşdırılmasında və həyata keçirilməsində iştirak edən həyat yoldaşı X.İ və qızı Ə.İ saxlanılıb. Cinayət işinin istintaqının aparılması Nizami Rayon Prokurorluğundan alınaraq Bakı Şəhər Prokurorluğuna verilib.

Cinayətdə başqa şəxs və ya şəxslərin iştirakı istisna edilmir, araşdırmalar davam etdirilir.

Qeyd edək ki, keçən il avqustun 31-də naməlum şəxs və ya şəxslər F.İsgəndərova məxsus qarajın yaxınlığında dayanıb və onu gözləyib. F.İsgəndərov qaraja tərəf yaxınlaşan zaman qatil ona bir neçə bıçaq zərbəsi endirib, daha sonra isə onun boğazını kəsib. Bundan sonra cinayətkar F.İsgəndərovun evinə girib. Hadisə şahidinin dediyinə görə, qatil 20-25 yaşlı şəxs olub. Lakin həmin şəxsin cinayəti tək törədib-törətməməsi hələlik dəqiqləşməyib.

Onu da qeyd edək ki, keçən il avqustun 29-da F.İsgəndərov qızına toy edib. F.İsgəndərova toydan yaxşı pul qaldığı üçün həyat yoldaşı və qızı məlum cinayəti planlaşdıraraq həyata keçirib.

Qeyd edək ki, qətlə yetirilən F.İsgəndərov uzun illər Daşınmaz Əmlak üzrə Dövlət reyestri Xidmətinin rəis müavini olub. Onun həm də sabiq maliyyə naziri Əvəz Ələkbərovun xalası oğlu olduğu bildirilir.

# Ukrayna vətəndaşı bərabər yaşadığı qadını qətlə yetirdi



**Səbayel rayon prokurorunun köməkçisi Mirfariz Seyidəliyevin APA-ya verdiyi məlumata görə, hadisə Rəsul Rza küçəsi 16, mənzil 46 ünvanında qeydə alınıb.**

Həmin ünvanda yaşayan, Ukrayna vətəndaşı, 1986-cı il təvəllüdlü Elnur Şahmurad oğlu Hümbətov aralarında yaranan mübahisə zəminində qeyri-rəsmi nikahda olduğu 1989-cu il təvəllüdlü İlahə Vidadi qızı Ağayevanı bıçaqlayaraq qətlə yetirib.

Hadisəni törədən E. Hümbətov saxlanılıb.

# "Övladımı uşaq evinə vermişdi..."



**Bakıda növbəti sevgi cinayətinin üstü açılıb. APA TV-nin məlumatına görə, Xəzər rayonunun Binə qəsəbəsində Bakı şəhər sakini Nərgiz Babayevanın 40 yaşlı keçmiş sevgilisi Lətif Babayev tərəfindən bıçaqlandığı məlum olub.**

Qanlı hadisə mayın 3-də saat 20:00 radələrində baş verib. Nərgizin bıçaqlanması ilə bağlı həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində əvvəllər onunla qeyri-rəsmi nikahda yaşayan Sabirabad rayon sakini, 1975-ci il təvəllüdlü Lətif Yasəf oğlu Babayev tutulub. Araşdırmalar nəticəsində məlum olub ki, Lətif Babayevin Nərgiz Babayeva ilə mübahisəsi yaranıb və mübahisə qanlı sonluqla bitib. Bıçaq xəsarətləri alan qadın xəstəxanaya çatdırılıb.

Hadisə ilə bağlı müxtəlif versiyalar var. Onlardan biri bundan ibarətdir ki, Lətif yenicə işə düzələn Nərgizi qısqanıb, iki qardaşı işləmədiyi halda onun işləməyə başlamasının izahını tələb edib. Nəticədə tərəflər arasında mübahisə yaranıb.

Lətif Babayev isə istintaqa bildirib ki, mübahisəyə onun Nərgizlə qeyri-rəsmi nikahdan olan 3 yaşlı övladının uşaq evinə verilməsi səbəb olub. Daha doğrusu, Nərgiz Babayeva bu addımı atanda uşağın atası ilə məsləhətləşməyib.

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır. Lətif Babayevin keçmiş sevgilisini niyə bıçaqladığı araşdırmaların yekununda məlum olacaq.

YENİ MÜSAVAT

Son səhifə

N 97 (6125) 6 may 2015

# Kosmik dikdaban

Amerikanın kosmik araşdırma şirkəti olan SpaceX-in keçmiş müdirlərindən biri olan Dolly Sing və qrupu idman ayaqqabıları qədər rahat dikdaban hazırlamaq üçün işlərə başlayıblar. Araşdırma qrupunda bir raket mütəxəssisi, bir astronavt, bir modelyer, bir ortopedik ayaqqabı mütəxəssisi və bir mühəndis var. Araşdırmanın əsas səbəbinin ayaqlara pis təsir etməyən və hərəkət qabiliyyətini azaltmayan ayaqqabı hazırlamaq olduğu açıqlanıb. Sing "İndependent" qəzetinə verdiyi açıqlamada dikdaban ayaqqabı istehsalını alimlər üçün maraq obyektinə çevirməyə məcbur qaldığını deyib. Singin sözlərinə görə, o, dikdaban ayaqqabı mövzusunu maraqsız bir sahədən çıxarıb və ciddi bir mühəndislik probleminə çevirib.





## Nazir də iş axtarır

Yunanıstanın sabiq naziri hamını təəccübləndirəcək addım atıb. Sabiq daxili işlər naziri Arqiris Dinopul iş axtarması barədə elan yayımlayıb. Elanda bildirilir ki, siyasətdə və iqtisadi böhran şəraitində 13 il təcrübəsi olan sabiq nazir iş axtarır. Samaras hökumətində daxili işlər naziri postunda olan Arqiris Dinopul 25 yanvarda keçirilən seçkidə uduzduqları üçün özünə iş axtarmağa qərar verib. Onun iş elanı devnet-jobs.org saytında yerləşdirilib.

Qeyd edək ki, sabiq nazir eyni zamanda jurnalist fəaliyyəti ilə də tanınır. O, bir müddət Yunanıstan mətbuatı üçün müharibə reportajları yazıb.



## 5.2 milyon avroluq park cəzası

İsveçin İcra Dairəsi ölkədə xətalı park səbəbi ilə ən çox pul cəzası alan və bu cəzaları ödəməyən 20 nəfəri açıqlayıb. Dövlət qurumunun internet saytında yayımlanan siyahının ilk sırasında 10 il ərzində 37 min 30 dəfə park qaydasını pozan və ümumi halda 49 milyon 759 kron (5,2 milyon avro) cəza kəsilən 30 yaşlı isveçli gənc var. Onun adı açıqlanmasa da, ölkədə ən çox park cəzası aldığı bir çoxları tərəfindən bilinir.

Məlumat üçün bildirək ki, Malmö şəhəri ən çox park cəzası verilən şəhərlər arasında birinci sıradadır.

# Çiyələyin faydaları

İnsanın ruhdan düşməməsi, daim yaxşı əhval-ruhiyyədə olması üçün müntəzəm şəkildə çiyələk yeməsi məsləhətdir. Gündə 150 qram bu giləmeyvədən yeyən şəxs asanlıqla stressdən qurtula bilər. Tərkibindəki 50-dən çox ətirli və xeyirli maddələr sayəsində çiyələk insanın mənfi emosiyalarını azaldır, ruh yüksəkliyini artırır. Qanı təmizləyir, immuniteti artırır, maddələr mübadiləsini tənzimləyir, ürək-damar sisteminə faydalıdır, qaraciyər və böyrək xəstəlikləri üçün xeyirlidir, bədxassəli şişlərin yaranmasının qarşısını alır, diş və baş ağrılarına kömək edir, burun-udlaq iltihabı riskini azaldır.

Bazarlarda hər zaman qarşımıza çıxan sulu alçaların dadı qədər sağlığımıza yararı da önəmlidir. Daxilində B vitamini olan alça ürək, böyrək və qaraciyər xəstəliklərinə qarşı qoruyucudur. Qan azlığını aradan qaldırır, iştahanı açır və ehtiva etdiyi liflər sayəsində həzmi asanlaşdırır. Ancaq alçanı çox yedikdə ishal kimi problemlər ortaya çıxır. Alça həmçinin qızdırmanı aşağı salma xüsusiyyətinə malikdir. Nəzdində çoxlu miqdarda su saxlayan alça, reql tənzimləyici və sidik sökücüdür. Duzsuz rejim edən və revmatizm rahatsızlığı olanlara xeyri var. Ayrıca alça, kalium və maqnezium mineralları ilə zəngin meyvədir.





## Şahzadənin adı bəlli oldu

İngiltərənin krallıq cütlüyü Keyt Midilton və şahzadə Uilyamın bir neçə gün öncə dünyaya gələn övladlarına Şarlotta Elizabet Diana adı verilib. Yeni doğulmuş körpə həm böyük nənəsi olan Kraliça II Yelizaveta , həm də 1997-ci ildə həyatını itirmiş ata nənəsi Şahzadə Diananın adını daşıyacaq. Bu günə qədər oynanılan mərc oyunlarda yeni doğulmuş Şahzadənin Alice, Şarrlotta ya da Diana adını daşıyacağı güman edilirdi. Şahzadə Uilyams uşağın adını ictimaiyyətə açıqlamadan öncə son qərarını paylaşmaq üçün nənəsi Kraliça II Yelizavetanın yanına getmişdi. Balaca şahzadə taxt sırasında babasından, atası şahzadə Uilyam, qardaşı şahzadə Corcdan sonra dördüncü yeri tutur. Keyt Midilton kiçik şahzadəni Londondakı Lindo Ving xəstəxanasında 6 saatlıq doğumdan sonra dünyaya gətirib. Uşaq 3 kilo 71 qram çəki ilə dünyaya göz açıb.




**QOÇ** - Ünsiyyətdə olduğunuz hər kəsi ittiham etməkdənsə bir qədər öz üzərinizdə redaktələr edin. Dar macalda enerjinizi heç olmasa, sevgidən alın. Bu gün həqiqətə söykənmək, bağışlamaq çox gözəl olar.

**BUĞA** - Bu gözəl gündə bütün gücünüzü beyninizi artıq yüklərdən təmizləməyə həsr edin. Paralel iş və münasibətlər sizi bərk yorduğu üçün bir qədər təcrid olunun. İşdə özünüzü çox da yormayın.

**ƏKİZLƏR** - Ümumi mənada düşərli vaxtdır. Əvvəlki günlərin gərginliyindən əsər-əlamət qalmayacaq. Saat 14-dən sonra gücünüzə güc qata bilən insanlarla görüşləriniz mümkündür ki, bundan imtina etməməlisiniz.

**XƏRÇƏNG** - Nahara qədər emosional sabitliyinizi qorumağa çalışın. Dəyərsiz şeylər barədə düşünüb enerjinizi azaltmayın. İndi sizə etibarlı dostlar və pul lazımdır ki, buna da dediklərimiz sayəsində çata bilərsiniz.

**ŞİR** - Düşünməyin ki, qarşınızda duran vəzifələri yerinə yetirmək mümkünsüzdür. Əslində daxili tənbəlliyinizi bir kənara atmaqla, məsləhətlərdən yararlanmaqla hər şeyə nail ola bilərsiniz.

**QIZ** - Qarşınızda nə qədər planlarınız varsa, hamısını günün ikinci yarısına saxlayın. Çünki məhz deyilən ərəfədə uğur məqamlarınız başlayacaq. O vaxta qədərsə ənənəvi fəaliyyətlə məşğul olun.

**TƏRƏZİ** - Qarşınızda maraqlı bir təqvim durub. İstər qarşılıqlı münasibətlərdə, istərsə də fəaliyyət müstəvisində sizi qane edən proseslərlə rastlaşacaqsınız. Səfərlər planınızı isə bugünlük təxirə salın.

**ƏQRƏB** - Kosmik fon bürcünüzə əsrarəngiz bir gün yaşadacaq. Hər kəslə mülayim və ədalət çərçivəsində davranın ki, rəğbət qazanasınız. Səfərə çıxmaq uğurlu olsa da, axşam saatlarında diqqətli olun.

**OXATAN** - Bu gün işdən daha çox müzakirələrə vaxt ayırın. Çünki apardığınız söhbətlər yaxın yarım ilin perspektivlərinə birbaşa təsir göstərəcək. Hər bir danışıq detalına xüsusi diqqət yetirin.

**OĞLAQ** - Tanrının ixtiyarınıza verdiyi bu təqvimdən pis heç nə gözləməyin. Əgər günaha aparan işlərdən uzaq dursanız, müjdələrin şahidi olacaqsınız. Az qala unutduğunuz qohumlarınızla əlaqə yaradın.

**SUTÖKƏN** - Təxminən saat 12-yə qədər daxili gərginliyiniz xeyli səngiyəcək. Bu da rastlaşdığınız hadisələrdən doğacaq. Amma gərək siz də situasiyalara müvafiq davranasınız. Duzlu qidalardan qaçın.

**BALIQLAR** - Bacardığınız qədər bu təqvimi təmkinli şəkildə yola salın. Başqalarının şəxsi işlərinə müdaxilə etməyin. Daha çox adi işlərin həlli ilə məşğul olun. Bu gün qurban kəsmək, ziyarətə getmək çox düşərlidir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İt qatilinə 18 ay həbs




Avstraliyada 9 itin başını daşla əzərək öldürən oğlana 18 aylıq həbs cəzası verilib. Nathan Tompson adlı gəncin vəkili gənc oğlanın cinayət zamanı narkotik maddənin təsiri altında olduğunu, üç gündür yatmadığını deyib. Ona görə də 25 yaşlı Nathanın həbsxanaya deyil, xəstəxanaya göndərilməsini tələb edib. Lakin hakim vəkilin tələbini qəbul etməyib. Ona 18 aylıq həbs cəzası verilib. Nathan 12 aydan tez azadlığa çıxa bilməyəcək.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.